**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda iqtisadi inkişafın formalaşmasında əmək ehtiyatlarından istifadə imkanları və onun təkmilləşdirilməsi siyasəti”

mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**Nağıyeva Nübar Bəhram**

**Bakı – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d.,dos.Əhmədov Fariz Saleh**
_______________ (imza)
"___" __________ 20__-cu il

# "Azərbaycanda iqtisadi inkişafın formalaşmasında əmək ehtiyatlarından istifadə imkanları və onun təkmilləşdirilməsi siyasəti"

mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**Nağıyeva Nübar Bəhram**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**
**İxtisaslaşma: Əməyin İqtisadiyyatı**

| | |
|---|---|
| **Magistrant** | **Elmi rəhbər** |
| **Nağıyeva Nübar Bəhram** | **i.e.n.,dos.Bayramova Xalidə Nuru** |
| **_______________imza** | **________________imza** |
| **Proqram rəhbəri** | **Kafedra müdiri** |
| **i.ü.f.d.,b.m.Hümbətova Suqra İnqilab** | **i.e.d.,prof. Kəlbiyev Yaşar Atakişi** |
| **_______________imza** | **_______________imza** |

**BAKI – 2019**

**The use of labor resources in the economic development of Azerbaijan and the policy of its improvement**

**Summary**

**The relevane of the research. The world is rapidly developing, changing and improving. Nowadays, the modern world is pushing the world's countries to set a new goal. This is economic development. Human factor is at the center of development. Therefore, the assessment of the human factor in economic development is a crucial factor today.**

**Purpose and tasks of the research. The purpose of the research is to determine the current state of economic development in our country and the world, to compare its past and strategic goals, to identify the role of labor resources in achieving development, and to find ways to improve it.**

**Object of research. The object of the research is to study the factors that contribute to the economic development.**

**Research methods. The cause-result, comparative analysis, structural, statistical methods were used in the research.**

**Research information base. İnformation base of the research work consists of economic reforms carried out by countries, scientific approach to our topic, the outcome of the foreign and local experts regarding the achievement of economic development.**

**Research engagements. The research work requires a wider database. Specifically, there is a need for statistical and internationally compressed indexes to assess the role of labor resources and to make comparisons with world countries to ensure economic development.**

**Scientific-practical significance of the results. The outcome of the research can play a positive role in enriching the scientific, practical knowledge of young researchers who are conducting research on the role of human beings in economic development.**

**Key words: economic development, labor resources, human capital.**

# İXTİSARLAR və İŞARƏLƏR

| | |
|---|---|
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BMTİP** | Birləşmiş Millətlər Təşkilatı İnkişaf Planı |

# MÜNDƏRİCAT

**GİRİŞ ........................................................ 7**
**I Fəsil İQTİSADİ İNKİŞAF NƏZƏRİYYƏLƏRİ VƏ ƏMƏK EHTİYATLARI ANLAYIŞI ........................................................ 11**
1.1.İqtisadi inkişaf nəzəriyyələrində insan amilinin rolu ........................................ 11
1.2.İqtisadi inkişafın təmin edilməsində insan kapitalı ........................................ 17
1.3.İqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarından istifadənin əhəmiyyəti ........................................ 23
**II Fəsil ÖLKƏLƏR ÜZRƏ İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ ƏMƏK EHTİYATLARININ MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ ........................................ 27**
2.1.Dünya ölkələrində tətbiq olunan iqtisadi inkişaf modellərində əmək ehtiyatlarının yeri və vəzifəsi ........................................ 27
2.2.Ölkələr üzrə iqtisadi inkişaf göstəricilərində əmək ehtiyatlarının rolu ............ 32
2.3.İEÖ və İEOÖ-in iqtisadi inkişafında əmək ehtiyatları arasındakı fərqlər ........ 37
**III Fəsil AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA ƏMƏK EHTİYATLARININ ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ ........................................ 42**
3.1.Azərbaycanın iqtisadi inkişafında əmək ehtiyatlarından istifadənin keçmiş və indiki dövrə görə müqayisəli təhlili ........................................ 42
3.2.Azərbaycanda əmək ehtiyatlarının inkişafına strateji baxış ............................ 47
3.3.Azərbaycanda iqtisadi inkişafın təkmilləşdirilməsi yolunda yaşanan problemlər və onların həllində əmək ehtiyatlarının rolu ........................................ 55
**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................ 62**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........................................ 67**
Qrafiklərin siyahısı ........................................ 69
Cədvəllərin siyahısı ........................................ 69

# GİRİŞ

**Mövzunun aktuallığı:** Dünya sürətlə inkişaf edir, dəyişir və təkmilləşir. Hər yeni ildə əvvəlki illərlə müqayisədə elm və texnologiya sahəsində yeni-yeni nailiyyətlər əldə edilir. İqtisadiyyatın inkişafı mərhələsinə nəzər salsaq daim iqtisadi artım və iqtisadi inkişaf anlayışları aktual mövzular olmuşdur. Bəzi dönəmlərdə hətta iqtisadi inkişaf iqtisadi artımla eyniləşdirilmişdir. Lakin zaman keçdikcə bu iki anlayış arasındakı fərq özünü daha çox biruzə verməyə başladı. Belə ki, artıq dünya miqyasında anlaşıldı ki, iqtisadi artıma nail olmaq ölkə üçün heç də iqtisadi inkişaf demək deyildir.

Artıq müasir dövr dünya ölkələrini qarşılarında yeni bir məqsəd qoymağa sövq edir. Bu isə iqtisadiyyatın inkişaf etdirilməsi, ölkələrin bir-biri ilə inteqrasiyası, iqtisadiyyatın sosiallaşdırılmasıdır. İqtisadi inkişaf ölkə iqtisadiyatının iqtisadi, siyasi və sosial cəhətdən inkişafını nəzərdə tutur. İnkişafın təmin edilməsində əsas məqsəd isə həyat səviyyəsinin və sosial rifahin yaxşılaşdırılmasıdır. Göründüyü kimi inkişafın təməlində insan dayanır.

İqtisadi inkişaf ilk növbədə insan kapitalının inkişaf etdirilməsini tələb edir. Bu isə əhalinin sağlamlığının qorunması, təhsil səviyyəsinin yaxşılaşdırılması və əhalinin məşğulluğunun təmin edilməsi sayəsində mümkün olur. İnsan hər cür məhsul və xidmətlərin yaradıcısı, eyni zamanda onların istehlakçısıdır. Ölkə üzrə məhsul və xidmətlərin yaradıcıları isə əmək ehtiyatlarıdır. Əmək ehtiyatları özündə həm fəaliyyət göstərən, həm də potensial işçi qüvvəsini birləşdirir.

Azərbaycanın iqtisadi vəziyyətinə nəzər salsaq görərik ki, ölkəmiz bugünki vəziyyətinə çətin və məşəqqətli yollar keçərək gəlib çata bilmişdir. Müstəqilliyimizin hələ 28-ci ilində olmasına baxmayaraq istər iqtisadi artım, istərsə də iqtisadi inkişaf yolunda böyük nailiyyətlərə imza atmışdır. İqtisadi artım sahəsində bəzi illərdə dünya miqyasında hiss olunacaq dərəcədə nailiyyətlər əldə edilmişdir. İqtisadi inkişaf yolunda da əsaslı addımlar atılmış, müvafiq qanunvericilik aktları qəbul edilmiş, əsaslı islahatlar həyata keçirilmişdir. Əvvəlki illərlə müqayisədə inkişaf yolunda böyük irəliləyişlərə nail olunmuşdur, lakin bu gün də bəzi problemlərin aradan

qaldırılmasına ehtiyac vardır.

İnkişafımız hər bir sahədə beyin gücünün artırılması ilə mümkün olmuşdur. Ona görə də hər bir sahədə əmək ehtiyatının səmərəliliyin artırılması qarşıya qoyulan prioritet məsələ olmuşdur. Qeyd etdiyimiz kimi iqtisadi inkişaf təhsil, səhiyyə və məşğulluq anlayışları ilə əlaqədardır. Bu sahələrdə nailiyyətlərin əldə olunması isə o sahə ilə məşğul olan insanların səriştəsindən asılıdır. Bütün bu kimi məsələlərin öyrənilməsi isə mövzumuzu aktual edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**. İqtisadi inkişafın ölkə üzrə təmin edilməsi, onun əsasında duran amillərin öyrənilməsi, bu sahədə qarşıya çıxan problemlərin həll edilməsi istər ölkəmiz, istərsə də dünya miqyasında aktual olan məsələlərdəndir. Ölkəmizdə bu sahədə nailiyyətlərin əldə edilməsi üçün əsaslı islahatlar həyata keçirilmiş, müvafiq qanunvericilik aktları qəbul edilmişdir.

Azərbaycanda iqtisadi inkişafın sistemli şəkildə həyata keçirilməsini təmin edilməsi məqsədi ilə Milli İnkişaf Modeli hazırlanmış və bu sahədə əsaslı işlər həyata keçirilmişdir. İnkişafın uğurla həyata keçirilməsi istiqaməti yerli alimlər tərəfindən araşdırılmış və bu istiqamətlə müəyyən fikirlər irəli sürülmüşdür.

Dünya miqyasında da iqtisadi inkişafın araşdırılması, inkişafda insanın rolunun öyrənilməsi məqsədilə hər il Birləşmiş Millətlər Təşkilatı və Dünya Bankı tərəfindən müvafiq istiqamətlər üzrə indekslər hazırlanır və dünya ölkələri üzrə müqayisələr aparılır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi ölkəmizdə və dünyada iqtisadi inkişafın mövcud vəziyyətinin müəyyən edilməsi, onun keçmiş dövrlə müqayisəsi və strateji hədəflərinin müəyyən edilməsindən, inkişafa nail olmaqda əmək ehtiyatlarının rolunun müəyyən edilməsi və onun təkmilləşdirilməsi yollarının aşkarlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- ✓ İqtisadi inkişaf nəzəriyyələrində insan amilinin rolunun öyrənilməsi;
- ✓ İqtisadi inkişafın təməl nöqtəsi olan insan kapitalının araşdırılması;
- ✓ İqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarından istifadənin əhəmiyyətinin müəyyən edilməsi;

✓ Dünya ölkələrində tətbiq olunan iqtisadi inkişaf modellərində əmək ehtiyatlarının yeri və vəzifəsi haqqında məlumatların əldə edilməsi;

✓ Ölkələr üzrə iqtisadi inkişaf göstəricilərində əmək ehtiyatlarının rolunun dəyərləndirilməsi;

✓ İEÖ və İEOÖ-in iqtisadi inkişafında əmək ehtiyatları arasındakı fərqlərin analizi;

✓ Azərbaycanın iqtisadi inkişafında əmək ehtiyatlarından istifadənin keçmiş və indiki dövrə görə müqayisəli təhlilinin sistemləşdirilməsi;

✓ Azərbaycanda əmək ehtiyatlarının inkişafına strateji baxış;

✓ Azərbaycanda iqtisadi inkişafın təkmilləşdirilməsi yolunda yaşanan problemlər və onların həllində əmək ehtiyatlarının rolunun qiymətləndirilməsi.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin obyekti iqtisadi inkişafın təmin edilməsini şərtləndirən amillərin öyrənilməsidir. Tədqiqatın predmetini isə iqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarının rolu və ondan səmərəli istifadə məsələləri təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat işində qarşıya qoyulan məsələlərin həllinə nail olmaq üçün səbəb – nəticə, müqayisəli təhlil, struktur, statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işinin nəzəri – metodoloji əsasını ölkələr üzrə reallaşdırılmış iqtisadi islahatlar, mövzumuza elmi yanaşmalar, iqtisadi inkişafa nail olunması ilə bağlı xarici və yerli ekspertlərin gəldiyi nəticələr, aparılmış elmi tətqiqat işləri təşkil etmişdir. Həmçinin ölkəmizdəki iqtisadi inkişaf göstəriciləri haqqında məlumatın əldə olunmasında dövlət orqanlarının, beynəlxalq orqanların rəsmi internet səhifələrində yerləşdirilmiş məlumatlarından da istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri**. Tədqiqat işi daha geniş informasiya bazası tələb edir. Xüsusi ilə də, iqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarının rolunun qiymətləndirilməsi və dünya ölkələri ilə müqayisənin aparılması istiqamətində əhatə olunmuş statistik və beynəlxalq miqyasda tərtib olunmuş indekslərin məlumatlarına ehtiyac var.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti**. Tədqiqat zamanı əldə edilmiş nəticələr, irəli sürülmüş təklif və tövsiyələr, iqtisadi inkişafın təmin edilməsini şərtləndirən amillər, iqtisadi inkişaf yolunda yaşanan problemlər, dünya miqyasında inkişaf göstəriciləri haqqında anlayışlar inkişafa nail olunmasında insanın rolu sahəsində araşdırmalar aparan gənc tədqiqatçıların elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər.

**Dissertasiya işinin strukturu və həcmi**. Dissertasiya işi 70 səhifə həcmində olub, giriş, üç fəsil, 9 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Birinci fəsildə iqtisadi inkişaf anlayışına ümumi baxış, mövcud olan iqtisadi inkişaf nəzəriyyələri, bu nəzəriyyələrdə olan aparıcı meyllər, iqtisadi inkişafın təmin edilməsində insan amilinin rolu qiymətləndirilmiş, insan kapitalı anlayışı, bu anlayışın meydana gəlməsinin sürətlə inkişaf edən qlobal cəmiyyətdə necə əhəmiyyətli olduğu haqqında danışılmış və iqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarından səmərəli istifadə və onun əhəmiyyəti haqqında məlumat verilmişdir.

İkinci fəsildə iqtisadi inkişafın təmin edilməsində ölkələr üzrə əmək ehtiyatlarının mövcud vəziyyəti və onun qiymətləndirilməsi, dünyanın sürətlə inkişaf edən ölkələrində insan kapitalından istifadənin səmərəliliyi, ölkələrin iqtisadi inkişafa nail olmasında əmək ehtiyatlarından istifadə qaydaları, bu sahəyə göstərdiyi qayğılar, həmçinin, bu sahənin diqqətdən kənarda qalmasının səbəb olduğu fəsadlar və buna görə də İEÖ və İEOÖ-in iqtisadi inkişafında əmək ehtiyatları arasındakı fərqlər araşdırılmışdır.

Üçüncü fəsildə ölkəmizin iqtisadi inkişafı, bu inkişafa nail olmaq üçün keçdiyi yolda əmək ehtiyatları ilə əlaqəli gördüyü işlər, ölkəmizdə iqtisadi inkişafa nail olmaq üçün qarşıya qoyulan strateji hədəflər içərisində insan amilinin rolu, səmərəli yüksəlişə mane olan və ya ola biləcək amillər, ölkəmizin iqtisadi inkişafının digər dünya ölkələrinin iqtisadi inkişafı ilə müqayisəsi, iqtisadi inkişafa nail olmaq üçün dövlətin qəbul etdiyi qanunlar haqqında məlumat verilmişdir.

# I Fəsil İQTİSADİ İNKİŞAF NƏZƏRİYYƏLƏRİ VƏ ƏMƏK EHTİYATLARI ANLAYIŞI

## 1.1.İqtisadi inkişaf nəzəriyyələrində insan amilinin rolu

İqtisadi inkişaf bir cəmiyyətin iqtisadi, sosial, sağlamlıq və siyasi cəhətdən həyat səviyyəsinin yüksəlməsinə deyilir. İnkişaf iqtisadiyyatda müşayiət olunan artımla yanaşı sosial və siyasi qurumların struktur olaraq dəyişməsi və inkişafını da nəzərdə tutur: yoxsulluq, işsizlik, gəlir bölgüsü, sağlamlıq və təhsil səviyyəsi bir cəmiyyətin həyat səviyyəsini göstərən əsas sosial göstəricilərdir.

Qloballaşan dünyada ölkələrin qarşısına qoyduğu əsas məsələlərdən biri də iqtisadiyyatın inkişafına nail olmaqdır. İnkişaf ölkələr üzrə özünü müxtəlif tempdə göstərir, həmçinin heç bir zaman öz-özünə meydana gəlmir. Çünki bu prosesi başlatmaq üçün mütləq hansısa bir amilin təsiri olmalıdır. Bu amillər içərisində əsas yeri isə insan amili tutur. İnkişafın olması üçün o ilk növbədə tələb edilməli, daha sonra bu istiqamətdə uzunmüddətli işlər həyata keçirilməlidir.

Mürəkkəb və olduqca böyük əhəmiyyətə sahib olan insan amili təbiət sirlərinin açılmasında, dünyanın kəşf edilməsində, cəmiyyətin inkişaf qanunauyğunluqlarının öyrənilməsində, maşın və avadanlıqların yaradılmasında, kosmosun fəth edilməsində və s. bu kimi məsələlərdə əsas rol oynayır.

Hər bir iqtisadiyyatın inkişaf etməsi, qlobal problemlərin həll edilməsi, insan tələbatının qarşılanması üçün müəyyən resurslar olmalıdır. Bütün bu resursların bağlı olduğu əsas resurs isə insan resurslarıdır. Ona görə də insan amili hər zaman diqqət mərkəzində olmalı, ondan optimal istifadə olunmalıdır ki, bu da son nəticədə digər resurslardan da səmərəli istifadəyə gətirib çıxaracaqdır.

İqtisadi inkişaf hər zaman mühüm əhəmiyyət kəsb edən məsələlər içərisində olmuşdur. Müxtəlif dövrlərdə inkişafın əsas şərtinin müxtəlif amillərdən asılı olduğunu əsaslandırmağa çalışmışlar. Buna görə də müxtəlif fikir məktəblərində bu anlayışa fərqli yanaşmalar olmuşdur. Bəzi yanaşmalarda insanın inkişaf etdirilməsi, ona investisiyalar qoyulması əsas istiqamət olsa da, bəzi yanaşmalar inkişafa tamamilə fərqli aspektlərdən yanaşmışlar. Məktəblərə nəzər saldıqda görəcəyik ki,

insan amili zaman keçdikcə aktuallaşmağa başlamış və bu amili diqqət önündə tutan ölkələr daha çox inkişaf etmiş və dünyada önəmli yer tutmuşlar. Bəzi iqtisadi fikir məktəblərinin yanaşmaları ilə tanış olaq:

**Merkantilist yanaşma:** XVII yüzilliyin əvvəllərinə qədər bütün Avropada hakimiyyət krallar tərəfindən idarə olunur və ölkələrdə kralların mütləq idarəetmə rejimi hökm sürürdü. Lakin bir kralın təkbaşına bütün ölkəni idarə edə bilməyəcəyinin başa düşülməsi iyerarxik bürokratiyaya keçməyə, beləliklə ölkənin krallar, zadəganlar və varlı tacirlər arasında mütləq idarəetmə rejimi yaratmaqla idarə edilməsinə başlandı. XVI-XVIII əsrləri əhatə edən bu dövr iqtisadi ədəbiyyatlarda Merkantilizm dövrü olaraq tanınır.

Merkantilistlər hər zaman ölkənin necə varlı və güclü ola biləcəyi mövzusu ətrafında araşdırmalar aparmış və bunun ancaq müsbət xarici ticarət ilə mümkün ola biləcəyini vurğulamışlar. Merkantilistlərin fikrincə müsbət xarici ticarətə sahib olmağın əsas yolu isə qızıla sahib olmaqdadır. Buna görə də xarici ticarət ölkəyə qızıl və gümüşün daxil olmasını asanlaşdıracaq şəkildə təşkil edilməli, sənaye ucuz xammalın idxalı ilə dəstəklənməli, yarımfabrikatlar idxal olunmalı son məhsulun isə ixracı artırılmalıdır.

Merkantilistlər dövlətin iqtisadiyyata müdaxilə etməsini və bazarda aktiv yer almasını dəstəkləyirlər. Bu zaman dövlət öz gücündən istifadə edərək ixracı təşviq etməli, idxalı isə məhdudlaşdırmalıdır. Merkantilist tərəfdaşları milliyyətçi olduğu üçün onların maraqlarında duran əsas məsələ digər ölkələrin deyil, yalnız öz ölkələrinin zənginləşməsi olmuşdur. Bu düşüncəyə görə bir ölkənin rəqabətqabiliyyətli olması ölkə daxilində əmək haqqının aşağı səviyyədə saxlanmasından asılıdır. Əmək haqqının aşağı, istehsalın yüksək olmasını istəyən ölkə isə hər zaman əhalinin böyüməsinə dəstək verməli və miqrasiyanı məhdudlaşdırmalıdır.

Ümumiləşdirərək deyə bilərik ki, bu dövrdə siyasi güc iqtisadi gücə, iqtisadi güc ixracın artırılmasına, ixracın artması isə istehsal gücünün artmasına sahib olacağı hakim fikir olmuşdur. Bir ölkə ancaq istehlak etdiyindən artığını istehsal edərsə ixracın artımına səbəb olacaq və beləliklə ölkə daha çox qızıla və gümüşə sahib

olaraq inkişaf edəcəkdir. Ancaq bu nəzəriyyə bir müddət sonra qızıl və gümüş kimi dəyərli mədənlərə yalnız bir qrup ölkənin sahib olması və bu da qiymətlərin qalxmasına səbəb olduğu üçün müvəffəqiyyətsizliyə uğradı. Göründüyü kimi Merkantilizim nəzəriyyəsinin tərəfdaşları inkişafa tamamilə fərqli istiqamətdən yanaşmış insan amilinin inkişaf etdirilməsindən söz açılmamışdır.

**Fiziokrat yanaşma:** Fiziokratlar iqtisadiyyatda dövlətin rolunun önəmi fikrinə görə Merkantilistlərdən tamamilə fərqlənirlər. Bu yanaşmanın tərəfdarları dövlətin iqtisadiyyata müdaxiləsinə tamamilə qarşı çıxır, dövlət müdaxiləsinin ölkədə iqtisadi məhsuldarlığı azaltdığını vurğulayırlar. Bu yanaşmaya görə iqtisadiyyatda ən önəmli sektor kənd təsərrüfatıdır, ölkələr ancaq kənd təsərrüfatını təkmilləşdirməklə iqtisadi inkişafa nail ola bilərlər. İrəli sürdükləri bu fikirlər o dövrdə sənaye və ticarət sektoru, müasir dövrdəki iqtisadi inkişaf modelləri ilə ziddiyyət təşkil edir. Çünki müasir dövrdə bir çox ölkələrdə kənd təsərrüfatının payı gedərək azalmaqda, sənaye və xidmət sektorunun payı artmaqdadır. Bu nəzəriyyə tərəfdarları da inkişafda insan amilini gözardı edərək, əsasən, təbii amillər üzərində dayanmışlar.

**Klassik yanaşma:** İqtisadi dövr tarixində 100 il hökm sürmüş klassik yanaşma tərəfdarları makroiqtisadi və iqtisadi artım məsələləri ilə maraqlanmış və bu sahədə tədqiqatlar aparmışlar. Klassik yanaşmanın iqtisadi artım və iqtisadi inkişaf ilə əlaqədar prinsipləri aşağıdakı kimi sıralanmışdır:

- ✓ Dövlətin iqtisadiyyata müdaxiləsi məhdud olmalıdır. Çünki dövlət iqtisadiyyata davamlı olaraq müdaxilə edərsə təbii qanunlar əsasında işləyən bazar mexanizminə zərər verər, iqtisadi məhsuldarlığı və artımı azaldar;
- ✓ Əhalinin rifah səviyyəsinin artırılması üçün əmək bölgüsü əsas şərtlərdən biridir;
- ✓ İqtisadiyyat hər zaman tam məşğulluq səviyyəsindədir və tam rəqabət şərtləri keçərlidir.

Klassik yanaşmanın yaradıcısı hesab edilən Adam Smit öz araşdırmalarında zənginlik, gəlir və gəlir bölgüsü, təşkilati quruluş və rəqabət kimi məsələləri analiz etmişdir.

Adam Smitin “Millətlərin zənginliyi” deyə tanınan əsərinin əsasında iqtisadi inkişaf dayanır. Bu kitabda gəlir bölgüsü, əmək bölgüsü, dövlətin iqtisadiyyatda rolu kimi bir çox məsələlər dəyərləndirilmişdir. Adam Smitə görə bir ölkənin zənginlik yarada bilməsi əmək bölgüsündən asılıdır. Fərdlərin müəyyən bir fəaliyyət sahəsində, müəssisələrin isə müəyyən bir məhsul istehsalında ixtisaslaşması iqtisadiyyatın sağlam şəkildə işləyə bilməsi üçün olduqca vacib amildir. Adam Smitə görə zənginlik məhsulların ya birbaşa istehlakına ya da başqa bir məhsul istehsalı üçün istifadə edilməsi  zamanı meydana çıxır. İnsanları bu zənginliyə nail olunmasında məhsul istehlakına yönəltməyin yolu da onlara gəlir sağlamaq, yəni onların şəxsi maraqlarını təmin etməkdir. Buna görə də insanların şəxsi maraqlarının təmin edilməsi ölkənin zənginliyinin artırılmasına və insanların yaşayış standartlarının artmasına gətirib çıxaracaqdır.

Əmək bölgüsünü zənginliyin ayrılmaz şərti hesab edən Adam Smit qeyd edirdi ki, əgər ölkələr ədalətli əmək bölgüsünə nail olarlarsa bu zaman inkişafdan söhbət gedə bilər. Adam Smit eyni zamanda şəxsi maraqların cəmiyyətin maraqları ilə üst-üstə düşdüyünü, şəxsi maraqları ön planda tutan cəmiyyətlərin inkişaf edə biləcəyini vurğulamışdır.

İqtisadi nəzəriyyənin bir çox sahələrinə önəmli töhfələr verən David Rikardo isə zənginliyin artırılmasında kənd təsərrüfatının inkişafının vacibliyindən bəhs edir. Onun fikirlərinə görə kənd təsərrüfatı eyni malın giriş və çıxışını təmin edən yeganə sahədir və ölkənin bütövlükdə inkişafı üçün bu vacib faktordur. David Rikardo kənd təsərrüfatına üstünlük verməsinə baxmayaraq, Fiziokratlardan fərqli olaraq bu sektorun iqtisadiyyatın inkişafında yeganə rol oynayan sektor olmadığını da bildirmişdir. Əksinə digər sektorlar da inkişaf etməlidir, ancaq buna kənd təsərrüfatında yaşanan inkişafla nail oluna biləcəyini önə sürmüşdür.

David Rikardo inkişaf edən bir iqtisadiyyatı texnoloji yeniliklərin təqib edəcəyini və bu texnoloji yeniliyin torpaq qənaəti, sərmayə və əmək ehtiyatı qənaətinə əsaslanacağını qeyd etmişdir. Torpaq qənaətinə istiqamətlənən yeniliklər daha yaxşı gübrə, daha məhsuldar torpaq şəklində ortaya çıxarsa, sərmayə və əmək ehtiyatının qənaətinə istiqamətlənən yeniliklər kənd təsərrüfatı alətlərinin

təkmilləşdirilməsi, heyvanlarda yaşanan xəstəliklərin aradan qaldırılması kimi mövzuları aktual edəcəkdir.

Göründüyü kimi Klassik yanaşmanın təfəfdarları da öz aralarında inkişaf üçün fərqli sahələrə önəm vermişlər. Lakin məhz bu dövrdən başlayaraq insan amilinin iqtisadi inkişafda rolu gedərək artmağa başlamışdır. Düzdür bu dövrdə insana əsasən iqtisadi insan kimi yanaşılmış sosial məsələlər kənarda qalmışdır, lakin yenə də inkişaf yolunda insan amilinin rolu dərk edilmişdir.

**Marksist yanaşma:** Klassik iqtisadçılar kapitalizmi bu sitemin artım səviyyəsi və məhsuldarlıq kimi məsələlərdəki üstünlüyü ilə haqlı çıxarmağa çalışarkən, Karl Marks bunun əksinə kapitalizmin kütləvi insan xərcləri üzərində fokuslanmış, zənginliyin ədalətsiz bölgüsü, pis sağlamlıq və mənzil şərtləri, uşaq və qadın işçi qüvvəsi kimi mövzular əsasında təhlil etmişdir.

Klassik yanaşma ilə Marksist yanaşma arasında ciddi bir fərqlilik var. Klassik yanaşma istehsalı artırmağın yolları, şəxsi və cəmiyyətin maraqları kimi məsələlər üzərində fikirlərini cəmləsə də, qarşıya qoyduqları məqsədə nail olmaq üçün istifadə etdikləri insan faktorunu daha geniş mənası ilə iqtisadi inkişaf üçün lazım olan məsələlərin (sağlamlıq, təhsil səviyyəsi, gəlir bölgüsü və s.) kənarında qoymuşdur. Marksist yanaşma da bu əksikliklərdən yola çıxaraq əsl inkişaf modelinin sosial faktorları da əhatə edəcək şəkildə genişləndirilməsinin gərəkdiyini önə sürmüş, zənginlik artarkən sosial faktorların da göz önündə olması fikrininin dəstəklənməsinin tərəfdarı olmuşdur.

Karl Marksın üzərində dayandığı əsas fikir əmək ehtiyatları tərəfindən yaradılan əlavə dəyərdir. Bu dəyər müəssisə rəhbəri tərəfindən bir işçinin iş saatından artıq müddətdə işlədiyi zaman ortaya çıxmaqdadır. Məsələn: gündə 6 saat işləyən bir işçinin iş satı 6 saatdan 10 saata çıxarılarsa, 4 saat artıq işlədiyi müddət müəssisəyə əlavə dəyər olaraq daxil olacaqdır. Davamlı olaraq bu dəyəri artırmaq istəyən müəssisələr ya işçinin iş saatını artıracaq, ya da yeni avadanlıqlardan istifadə edərək işçilərin məhsuldarlığını artırmağa çalışacaqlar.

Marksist iqtisadi inkişaf modelinə görə davamlı sərmayə yığımı ancaq əmək ehtiyatları tərəfindən təmin edilə bilər. Bu zaman yuxarıda da qeyd etdiyimiz kimi

əmək ehtiyatları tərəfindən yaradılan əlavə dəyər sərmayəyə çevrilir. Sərmayə yığımı üçün lazım olan artıq dəyər əmək ehtiyatına tələbi artıracaq, bu isə qiymətlərin yüksəlməsinə səbəb olacaqdır. Lakin istehsal texnologiyalarında baş verən yeniliklər bir müddət sonra əmək ehtiyatlarına olan tələbi azaldacaqdır. Əmək ehtiyatlarına tələbin azalması isə yeni bir işsiz ordusunun yaranmasına səbəb olacaqdır.

**Keynsçi yanaşma:** C.M.Keyns Klassik yanaşmanın bütün makroiqtisadi ünsürlərini təqzib edir. Keyns modelinə görə iqtisadi inkişafa nail olmaq üçün dövlət iqtisadiyyata müdaxilə etməlidir. Keyns hesab edir ki, kifayət qədər böyük və səlahiyyətli dövlət müdaxiləsi kapitalist sistemin düzgün işləməsinə kömək edəcəkdir.

Bununla yanaşı Keyns psixoloji faktorların sahibkarların investisiya qərarlarına təsirinə böyük əhəmiyyət verdiyini qeyd edirdi. Başqa sözlə desək, investisiya qərarları faiz dərəcələri ilə deyil, gözləntilərlə də formalaşa biləcəyini önə sürür. Məsələn, hesablamalar baxımından böyük mənfəət əldə edə biləcəyi hesab edilən investisiya xərcləri, sahibkarın gələcək haqqında mənfi gözləntilərinə görə geri alına bilər.

Ümumiləşdirərək qeyd edə bilərik ki, iqtisadiyyat elminin yaranmasının özü birbaşa insan amili ilə əlaqədardır. Çünki bu elmin əsas məqsədi insan tələbatının ödənilməsidir. İqtisadi nəzəriyyələrdən də gördük ki, bəzi yanaşmalarda inkişafın təməlində insan dayanırsa, bəzilərində bu amildən heç söz açılmır. Lakin müasir dövrdə iqtisadi inkişafı bu amilsiz təsəvvür etmək çox çətindir.

## 1.2. İqtisadi inkişafın təmin edilməsində insan kapitalı

Müasir dövrdə inkişaf edən iqtisadiyyatın ən mühüm sisial-mədəni amili olan insan kapitalının inkişafına xüsusi diqqət ayrılır. Zaman keçdikcə inkişafda insanın əhəmiyyətinin başa düşülməsi bu sahədə tədqiqat işlərinin genişlənməsinə səbəb olmuşdur. Hələ ilk iqtisadi məktəblər dövründə də bu anlayışdan istifadə edilmiş, iqtisadi inkişafda insanın rolu vurğulanmış, bu sahəyə qoyulacaq sərmayənin nəticə etibarı ilə inkişafa səbəb olacağı qeyd edilmişdir

İnsan kapitalı sahəsinin araşdırılmasında bir sıra iqtisadçıların xüsusi rolu olmuş və hətta buna görə Nobel mükafatı laureatına layiq görülmüşlər. “İnsan kapitalı" anlayış olaraq 1960-cı ildə T.Şults tərəfindən irəli sürülmüş, 1964-cü ildə Q.Bekker tərəfindən daha geniş istifadə edilmişdir.

İnsanlar hər bir iqtisadiyyatda ən dəyərli resursdur. İnsanların sağlam, təhsilli və təcrübəli olması onların həm fərdi inkişafına, həm də cəmiyyətin inkişafına gətirib çıxarır. Hər bir ölkənin inkişaf etməsi onun əhalisində olan bilik, bacarıq, qabiliyyət və iş səriştəsindən birbaşa asılıdır.

İnsan kapitalı insanların və cəmiyyətin tələbatını ödəmək üçün istifadə olunan bilik və bacarıqlarının məcmusudur. Başqa cür desək, insan kapitalı şəxsin peşə fəaliyyəti zamanı gələcəkdə gəlir gətirə biləcək sahələrə hal-hazırda qoyulan investisiyadır.

İnsan kapitalı meyarı özündə dörd fərqli hissəni birləşdirməkdədir.

- ✓ **Təhsil:** ibtidai, orta və ali təhsil səviyyəsinin kəmiyyət və keyfiyyət göstəricisi;
- ✓ **Sağlamlıq:** cəmiyyətin zehni və fiziki gücünün göstəricisi;
- ✓ **Əlverişli mühit:** infrastruktur və hüquqi bazanın inkişaf göstəricisi;
- ✓ **Məşğulluq və iş qüvvəsi:** fərdin təcrübə, qabiliyyət, sərişdə və əmək qabiliyyəti;

İnsan kapitalı innovativ fəaliyyətin həyata keçirilməsi və elmi iqtisadiyyatın formalaşması üçün ən vacib faktordur. Belə ki, dünya iqtisadiyyatı artımının 16%-i fiziki kapital, 20%-i təbii ehtiyatlar, 64%-i isə insan kapitalının hesabına formalaşmışdır.

Hər bir zaman cəmiyyətin uğuru əhalinin həyat səviyyəsinin yüksəldilməsindən asılı olub. Bunun üçün isə dövlət iqtisadi sahədə olduğu kimi sosial sahədə də inkişaf etməlidir. Sosial sahənin inkişafı isə özündə mahiyyət etibari ilə insan resurslarına qoyulan investisiyaları ehtiva edir.

Sosial inkişaf isə bir neçə sahəyə xüsusi diqqət ayrılmasını tələb edib. Bunlara daxildir:

- ✓ **Erkən yaşlardan təhsil siteminin dəstəklənməsi:** Bu sahəyə ayırılacaq investisiyalar insanlar arasında rəğbətlə qarşılanmağa və şəxsin hələ uşaq vaxtlarından öz gələcəyi üçün rifahın təmin edilməsinə şərait yaradır.
- ✓ **Uşaqlara qayğı sisteminin formalaşdırılması:** Uşaq vaxtlarından başlayaraq valideynlər tərəfindən uşaqlara göstərilən rəftar onların istər şəxsi istərsə də iş həyatlarına öz təsirini göstərməkdədir. Düzgün göstərilmiş qayğı sistemi insanın özünə və ətrafındakılara müsbət təsirlə nəticələnir və belə insanların iş həyatları da uğurlu olur. Belə bir mühitdə fəaliyyət göstərən müəssisələrin fəaliyyətində də bunun nəticəsi hiss olunur. Ayrı-ayrı müəssisələrin inkişafı isə son nəticədə dövlətin inkişafına zəmin yaradır.
- ✓ **İnsanlar üçün yaşayış yerlərinin əlçatan olması:** İnsanların təhlükəsiz şəraitdə yaşamaları, övladlarını böyüdə, ictimai münasibətlər qura və yaşlanan valideynlərinin qeydinə qala bilmələri üçün yaşayış məskənin olması labüddür. Dövlətin bu sahəni dəstəkləməsinə hər zaman ehtiyac duyulur. Bu sahədə atılan addımlar gənclərin ailə həyatı qurmalarına da özköməkliyini göstərir. Ölkəmizdə bu sahədə aparılan tədbirlər çərçivəsində "Güzəştli mənzil"lər sisteminin yaradılmasını göstərmək olar. Bu sistem çərçivəsində artıq 2017-ci ildən mənzillərin güzəştlə satılması həyata keçirilir. Mənzillərin əldə edilməsinə müraciətin elektron sistem vasitəsi ilə aparılması isə insanlara vaxta qənaət etməkdə böyük köməklik göstərir.

İnsan "kreativ kapital"dır. İnsan kapitalı konsepsiyasında cəmiyyətin əsas hərəkətverici qüvvəsi yaradıcı insandır və onun sayəsində həyat səviyyəsinin yüksəldilməsinə, rəqabətqabiliyyətliliyin təmin olunmasına, sabit inkişafa nail olmaq olar.

İnsan kapitalının inkişaf etdirilməsi istehsalın inkişafına və nəticədə iqtisadi inkişafa təsir edir. Buna görə də insan kapitalına edilən investisiyalar iqtisadi cəhətdən bəzi xüsusiyyətlərə sahibdir. Bu xüsusiyyətlər özünü mikro və makro iqtisadiyyat səviyyəsində qeyd etdiyimiz cəhətlərdə biruzə verir:

Mikro iqtisadi xüsusiyyətlər:

- ✓ İnsan kapitalına edilən investisiyalar. Xüsusi ilə təhsil sahəsində edilən investisiyalar insan kapitalına edilən investisiyalar içərisində xüsusi önəm daşıyır. Bu vəziyyət işləyən əhalinin təhsil səviyyəsinin artırılması ilə birlikdə qazancının da artmasını təmin etməkdədir.
- ✓ Şəxslərin fərdi investisiya xərcləri onların həyat müddətində fərqli göstəriciyə sahibdir. Bu vəziyyət şəxslərin müxtəlif zaman kəsimində fərqli miqdarda insan kapitalına investisiya etdiyini göstərməkdədir. Məsələn gənc yaşlarda olan insanlarda investisiya əsasən təhsil sahəsi üzərində dayanmaqda, yaş artdıqca isə əsasən sağlamlıq istiqamətinə yönəlməkdədir. Burada maraqlı məqam isə yatıracaqları sərmayə miqdarının onların şəxsi seçimlərindən asılı olmasıdır.

Makro iqtisadi xüsusiyyətlər:

- ✓ İnsan kapitalına diqqət artdıqca əldə edilən fayda da artacaqdır. Yəni fərdlər inkişaf etdikcə onlar tərəfindən təmin edilən gəlir də davamlı olaraq artmağa başlayacaqdır. Hal-hazırda buna nümunə kimi inkişaf etmiş ölkələrin insan kapitalının inkişafı sayəsində həyata keçirdikləri tədbirləri göstərə bilərik.
- ✓ İnsan kapitalına investisiya nəticəsində meydana gələn fərqliliklər öz təsirini istehsal üzərində göstərməyə başlayacaqdır. Bu səbəbdən də müəssisələrin araşdırma və inkişaf sahəsində səyləri artacaq, alınan nəticə isə ölkə iqtisadiyyatına qatqı sağlayacaqdır.
- ✓ İnsan kapitalına edilən investisiyaların başqa sahələrə edilən investisiyalarla kompensasiya edilməsi mümkün deyil. Ona görə də təhsil, səhiyyə, sosial sahələrə edilən investisiyalar ölkə iqtisadiyyatına fayda verməkdədir.
- ✓ İnsan kapitalına edilən investisiyalar gələcəyə yönümlüdür, çünki onun nəticəsinin əldə olunmasına uzun bir müddət sərf etmək lazımdır. Eyni

zamanda insan istehsal olunan məhsulun istehlakçısıdır. Bu da qısa müddətdə tələbin təmin edilməsinə şərait yaradır.

- ✓ İnsan kapitalına edilən sərmayə əsasən dövlət tərəfindən qarşılanmalıdır. Lakin dövlət bu sahəni tam dəstəkləyə bilmirsə özəl sektor da öz növbəsində bu sahənin dəstəklənməsində köməklik göstərməlidir. Çünki insan kapitalından əldə olunan fayda birbaşa özəl müəssisələrə, o da dolayısı ilə dövlətə öz təsirini göstərir.

Göründüyü kimi insan kapitalına investisiya həm mikro, həm də makro təsirlərə sahibdir. Buna görə də bu cür investisiyalar həm fərdi, həm də ictimai faydanın artırılması baxımından önəmlidir. Eyni zamanda, insan kapitalı investisiyaları özəl sektor və dövlət sektorundan asılı olaraq həyata keçirilməlidir. Şəxsi şirkətlər özəl sektoru inkişaf edir, eyni zamanda məşğulluq bazarı fayda görmüş olur.

Öz inkişfı haqqında fikirləşən hər bir dövlət elmi-texniki sahələrdə baş verən inkişafı, informasiya texnologiyalarında baş verən dəyişiklikləri, ənənəvi texnologiyalarda baş verən innovativ yenilikləri, yeni ticarət münasibətlərini, məşğulluq sahəsində sürətlə dəyişən tələbləri insan potensialının inkişafını nəzərə alaraq həmin sahəyə uyğun olaraq addımlar atmalıdır.

İnnovativ inkişafın əsas tərkib hissəsi olan insan kapitalı rəqabət, innovasiya və iqtisadi böyüməni bir-birinə bağlayan əsas faktordur. Ölkədə iqtisadi artımın əldə edilməsi tətbiq olunan innovasiyadan asılıdır, bunun kökündə isə insan amili dayanmaqdadır. Ona görə də innovativ üstünlüyə sahib olan hər bir ölkə təhsilli insan kapitalını hər zaman özünə çəkir.

Ölkənin inkişafını dəyərləndirməkdə yalnız iqtisadi artımın deyil, əhali və onun sahib olduğu imkanların da əsas meyar olduğunu vurğulamaq üçün Dünya Bankı tərəfindən hər il İnsan İnkişafı İndeksi hazırlanır. Bu indeks adambaşına düşən ümummilli gəlir səviyyəsinə görə bir-birinə yaxın olan iki ölkənin nail olduğu müxtəlif insan inkişafı səviyyələrini araşdırmaqla, ölkələrin milli siyasət seçimlərini müəyyənləşdirməyə imkan verir. İnsan İnkişafı İndeksi ölkələr üzrə **təhsil göstəricisi, orta ömür müddəti və əhalinin layiqli həyat səviyyəsi** kimi göstəricilər üzrə qiymətləndirilir.

Ölkənin yüksək keyfiyyətli insan kapitalına sahib olması həmin ölkə üçün iqtisadi rifahın təməlidir. Bu özünü istehsal prosesində daim yeniliklərin edilməsi, istifadə olunan istehsal amillərinin yüksək məhsuldarlığa səbəb olması, texnologiyanın operativ şəkildə inkişafı şəklində biruzə verir.

Ölkələr üzrə rifah səviyyəsini qiymətləndirmək və inkişaf dərəcəsini ölçmək üçün BMTİP tərəfindən irəli sürülən və 1990-cı ildən bu yana hər il hazırlanan İnsan İnkişafı İndeksi əsas ölçü olaraq istifadə edilir. Bu indeks sıfır ilə bir arasında olmaqla, üç faktorun orta qiyməti kimi götürülür:

- ✓ gəlir indeksi;
- ✓ orta ömür müddəti indeksi;
- ✓ orta təhsil müddəti və həddi büluğa çatmış insanlarda oxuma-yazma faizi indeksi.

İndeks aşağıda sadaladığımız istiqamət üzrə ölkələri qruplaşdırır:

- ✓ Çox yüksək insan inkişafı səviyyəsinə sahib ölkələrdə İnsan İnkişaf İndeksi 0,800- 1,00 arasında dəyişir;
- ✓ Yüksək insan inkişafı səviyyəsinə sahib ölkələrdə İnsan İnkişaf İndeksi 0,700- 0,799 arasında dəyişir;
- ✓ Orta dərəcədə insan inkişafına sahib ölkələrdə İnsan İnkişaf İndeksi 0,500 - 0,699 arasında dəyişir;
- ✓ Aşağı dərəcədə insan inkişafına sahib ölkələrdə isə İnsan İnkişaf İndeksi 0,300 - 0,499 arasında dəyişir;

Bu indeksin ən önəmli özəlliyi ölkələrin sahib olduğu insan kapitalını nə dərəcədə səmərəli istifadə edildiyini göstərməkdən ibarətdir. İnsan Kapitalı İndeksi 130 ölkənin insan kapitalını 4 tematik ölçüdə (bilik, yəni şəxsin aldığı təhsil, bu təhsilin məşğulluğa təsiri, know-how və əmək dövriyyəsi) 0 (ən pis) ilə 100 (ən yaxşı) arasında dərəcələndirilir və 5 fərqli yaş qrupunda ya da başqa cür desək 5 nəsildə dəyərləndirilir. (0- 14), (15-24), (25-54), (55-64) və (65 yaş və ondan artıq).

Bir ölkənin inkişaf gücünü müəyyən edən faktorlar sırasına o ölkənin təhsil siyasətinin cəmiyyətə yansıması, insanların qazandıqları bilik və bacarıqlar vasitəsilə ölkəyə və cəmiyyətə qatqısı, inkişaf edən şərtlərə görə bu bilik və

bacarıqlrın yenilənmə sürəti və s. aid edilir. İnsan Kapitalı İndeksinin 2017-ci il hesabatından aşağıdakı nəticələr əldə edilmişdir:

- ✓ Ortalama olaraq dünyada mövcud olan insan kapitalının 62%-dən istifadə edilir. Başqa bir deyişlə, ölkələr insan ehtiyatlarının 38%-ni göz ardı edirlər ya da dəyərləndirmirlər, 70%-i keçən sadəcə 25 ölkə var, 50 ölkənin dərəcəsi 60% ilə 70% arasında, 41 ölkə 50% ilə 60% arasında,14 ölkənin dərəcəsi isə 50%-in altındadır.
- ✓ Siyahının ilk onluğuna girən ölkələr sırasında Norveç, Finlandiya, İsveçrə, ABŞ, Danimarka, Almaniya, Yeni Zellandiya, İsveç, Slovenya ve Avstrya yerləşir.
- ✓ 130 ölkə arasında daha üst sıralarda olan ölkələr təhsillə əlaqəli uzunmüddətli siyasət həyata keçirən, konkret sahələrə fokslanaraq özəlliklə həmin sahələrdə dünya miqyasında insan yetişdirməyi bacaran ölkələrdir
- ✓ İnsan kapitalında regionlar arasında fərqlər olduğu kimi təbii olaraq region ölkələri arasında da ciddi fərqlər var. Bəzi ölkələr ötən illərlə müqayisədə ciddi sıçrayışlar etmişdir. Məsələn Şri-Lanka önəmli irəliləyiş əldə edərək siyahıda 70-ci yerdə qərarlaşmışdır. Latın Amerikasında Argentina (52) ve Çili (53) insan resursları baxımından bölgə lideridirlər. Dərin bir krizin içində olan Venesuellada (94) isə büyük bir eniş müşahidə edilməkdədir. Orta Avropa ölkələrindən Çexiya (22) və Ukraynanın (24) müvəffəqiyyəti diqqət çəkicidir. Birləşmiş Ərəb Əmirlikləri (45) Bəhreyn (47) ve Qatar (55) dünya ortalamasının üzərində yer almaqdadır.

Nəticə olaraq onu qeyd edə bilərik ki, iqtisadiyyatında inkişafı hədəfləyən hər ölkə öz vətəndaşını düşünməli, insan kapitalının inkişafı üçün müəyyən addımlar atmalıdır.

### 1.3. İqtisadi inkişafın təmin edilməsində əmək ehtiyatlarından istifadənin əhəmiyyəti

Müasir dövrdə məhsuldar qüvvə adlandırılan anlayış öz tərkibinə görə tamamilə dəyişmişdir. Hal-hazırki dövrdə istər ölkə, istər də dünya miqyasında bu anlayışın tərkibinə bilik, elm, insan amili, sahibkarlıq fəaliyyəti kimi faktorlar daxil edilmişdir. Zaman keşdikcə ölkələrdə azad sahibkarlıq inkişaf edir, demokratiya prosesi geniş vüsət alır və sosiallaşma prosesi sürətlənir.

Qlobal problemlərin sürətlə artdığı bir dövrdə resurslardan səmərəli istifadə olunması qarşıya qoyulmuş əsas məsələ hesab edilir. Bütün resursların təməlində isə insan dayanır, çünki insan resurslarının düzgün qiymətləndirilməsi digər resursların da səmərəliliyinə səbəb olur.

İnsan resursu sahib olduğu keyfiyyətlərə görə elə bir xüsusiyyətə malikdir ki, onun idarə olunması və ondan cəmiyyətin inkişafı üçün istifadə edilməsi çətin bir prosesdir.

İqtisadi inkişaf üzrə təqdiqatlar aparılan zaman 1980-ci illərdən sonrakı dövrlərdə ölkələrdə daha çox sosial, mədəni və iqtisadi sahələr üzərində dayanılmış və aydın olmuşdur ki, bu dövrdən əvvəlki müddət ərzində demək olar ki, diqqətdən kənarda qalmış insan faktoru günümüzdə daha çox istifadə edilən anlayışa çevrilmişdir.

Beləliklə klassik yanaşmada qeyd edilən istehsal faktorlarına əlavə olaraq əmək faktorunun rolu göz önünə gətirilmiş və insan iqtisadi inkişafın təməl amilləri sırasına daxil edilmişdir. Ölkədə struktur dəyişikliklərin baş verməsi də məhz sahib olduğu əmək qüvvəsinin səriştəsindən asılı olmuşdur.

İqtisadi inkişafda əmək ehtiyatları dedikdə geniş anlamı ilə iqtisadi fəaliyyətlər yerinə yetirilərkən istehsala daxil edilən işçi qüvvəsinin sahib olduğu bilik və bacarıqlarının toplam olaraq istifadə edilməsi başa düşülməkdədir. Bu gün inkişaf etmiş ölkələrə diqqət yetirsək əmək ehtiyatlarından necə məharətlə istifadə edildiyinin şahidi olarıq. Aparılmış tədqiqatlar sübuta yetirmişdir ki, ölkələrin yoxsul olması onun fiziki resurslarla zəif təmin edilməsindən deyil də məhz əmək ehtiyatlarından səmərəli istifadə etməməsinin nəticəsində yaranmışdır.

İqtisadi inkişaf sahəsində geniş araşdırmalar aparmış Romerin tədqiqatlarına diqqət etsək, görə bilərik ki, bir ölkənin inkişaf sürəti tamamilə fiziki sərmayənin artırılmasından asılı deyil, inkişafın sürətinin artırılmasında əsas təsir dünya bazarına çıxmaqdan, ixtisaslı mühəndis və elm adamlarının sayının artırılmasındadır. Demək olar ki, bütün inkişaf modellərində insan ehtiyatları xüsusi rol oynayır. Yeni məhsulun istehsalını təmin edən, texnoloji inkişafın əsasını qoyan, araşdırma və inkişaf sektorunun təməlini qoyan da məhz əmək ehtiyatlarıdır. Əmək ehtiyatları zəngin olan ölkələr yeni məhsulları böyük sürətlə istehsal edərək dünya bazarına çıxarır və nəticə olaraq böyük bir artım göstərirlər. (Girişimcilik ve Kalkınma Dergisi, 2011)

Əmək ehtiyatları öz tərkibinə yalnız məhsuldar qüvvələrin malik olduğu potensialı, işçi qüvvəsinə aid olan fiziki və psixoloji xüsusiyyətləri, səhhəti kimi anlayışları daxil etmir, eyni zamanda onun təhsil səviyyəsini, sahib olduğu bilik və istehsal təcrübəsini, mədəni cəhətdən inkişaf səviyyəsini də özündə cəmləşdirir. Bu cür xüsusiyyətlərin mərkəzində isə insanların əmək qabiliyyətini müəyyənləşdirən fiziki keyfiyyətləri dayanır. Bu keyfiyyətlərin meydana gəlməsi və ondan səmərə əldə edilməsində dövlət əsaslı rol oynayır.

Hal-hazırda beynəlxalq miqyasda innovasiyaya əsaslanan iqtisadiyyata transformasiya həyata keçirilir, aparıcı ölkələrin iqtisadiyyatları buna nail olsalar da, bu proses istər aparıcı istərsə də digər ölkələr üçün əhəmiyyətli və davam etməsi tələb olunan bir prosesdir. Ölkəmiz də innovasiyaya əsaslanan iqtisadiyyatın qurulması prosesinə keçmişdir.

Texnoloji bilik insan kapitalının məhsulu olmaqla yanaşı insanların rifah halının yüksəldilməsində də əhəmiyyətli rol oynayır. İstehsal prosesinə daxil edilən yeni bilik və yüksək texnologiya istehsal həcminin artmasına və gəlirlərin yüksəlməsinə səbəb olur. Bu isə ölkədə məşğulluq səviyyəsinin yüksəlməsinə, eyni zamanda əhalinin daha təhlükəsiz, məhsuldar və səmərəli işlərdə işləməsinə, biliklərinin artırılmasına şərait yaradır.

Texnoloji yeniliklərin sürətli olması əhalinin ömür boyu təhsil və daima bacarıqlarını inkişaf etdirməli olduqları məsələsini aktual edir. Tətbiq olunan

yeniliklər iş mühitinə də əhəmiyyətli təsir göstərir. Belə ki, yeni texnologiya ilə ayaqlaşa bilməyən işçilər ya iş yerini tərk edir, ya da onların ixtisas artırmalarına əhəmiyyətli vəsait qoyuluşu lazım olur. Ona görə də elastik olan bazar şəraiti ilə ayaqlaşa bilmək üçün xüsusi ilə İnkişaf Etmiş Ölkələrdə geniş tətbiq olunan ömür boyu təhsil anlayışı bütün dünya ölkələri üçün qaşıya qoyulan əsas məsələlər içərisində olmalıdır.

Yeni texnologiyanın tətbiqi qeyd etdiyimiz kimi bir çox insanların iş yerini tərk etməsi ilə nəticələnə bilər. Bu isə ilk vaxtlar kütləvi işsizliyin yaranmasına səbəb olur. Lakin yeni texnologiya daha keyfiyyətli yeni məhsulların yaranmasına, bu isə həmin məhsullara tələbin artmasına səbəb olacaq və nəticədə yeni müəssisələr yaradılacaqdır. Ona görə qarşıda duran əsas məsələ işçilərin yeni yaradılacaq müəssisələrin tələblərinə uyğun keyfiyyətlərə yiyələnməsidir. Bunlar təmin olunduqdan sonra işsizlik səviyyəsi də azalmağa başlayacaqdır. Ümimiləşdirərək deyə bilərik ki, texnoloji yeniliklər uzunmüddətli dövrdə işsizliyə yol açan amil kimi qiymətləndirilməməlidir.

Yeni texnologiyanın tətbiqi nəticəsində artan məhsuldarlıq gəlirlərin artmasına, bu isə əlavə mal və xidmətlərin istehsalına tələb formalaşdırmaqla yanaşı, istehsalın həcminin genişləndirilməsini də stimullaşdıracaq. Texnoloji inkişaf əmək tutumlu istehsaldan insan kapitalı tutumlu istehsala yönələnməni tələb edir.

Hal-hazırki dövrdə  əsasən İnkişaf Etməkdə Olan Ölkələrdə müşahidə olunan, lakin özlüyündə böyük problem olan və iqtisadi inkişafa mane törədən amillərdən biri də əmək ehtiyatlarının öz ixtisaslarına, bilik və bacarıqlarına uyğun olmayan işlərdə çalışmalarıdır. Bu müəssisə miqyasında məhsuldarlığın aşağı düşməsinə, eyni zamanda müəssisədə həmin işçilərə görə əlavə xərclərin yaranmasına səbəb olur. Nəticə etibarı ilə isə bu vəziyyət özünü bütövlükdə ölkə miqyasında hiss etdirir. Ona görə də ölkələr üzrə tənzimlənməsi lazım olan sahələr içərisinə əmək ehtiyatlarının öz ixtisasları üzrə işlə təmin olunmasına şəraitin yaradılması daxil edilir.

İqtisadi inkişaf qeyd etdiyimiz kimi ölkə miqyasında təhsil, səhiyyə sisteminin inkişaf etdirilməsi və əlverişli mühitin yaradılması zamanı mümkün olur. Bütün

bunların yaradıcısı isə ixtisaslı əmək ehtiyatlarıdır. Dövlət bu sahədə tənzimləyici rol oynamalıdır. Onun əsas vəzifəsi iqtisadi inkişafa nail olmaq üçün ölkə miqyasında əmək ehtiyatlarının eyni səviyyədə inkişafını təmin etmək, bu sahəyə əsaslı vəsait ayırmaq, dünya ölkələrinə inteqrasiya etmək, yeni müəssisələrin yaradılması istiqamətində həvəsləndirici tədbirlər görməkdir. Bu sahədə əmək ehtiyatlarının əsas rolu isə aşağıdakılardır.

- ✓ Daim öz üzərində işləmək;
- ✓ Yeni bilik və bacarıqlara yiyələnmək;
- ✓ İxtisası üzrə işləmək;
- ✓ Dünya təcrübəsindən istifadə etmək.

İnkişaf Etmiş Ölkələr miqyasından nəzər salsaq görərik ki, bu ölkələrədə investisiya ayırmalarının əsas hissəsini insan kapitalı təşkil edir. Yəni bu ölkələrdə insan amilinə diqqət və qayğı olduqca yüksəkdir. Eybi zamanda onu da qeyd etməliyik ki, bu ölkələrin inkişafına səbəb olan əsas amil də məhz insandır. Burada əldə olunan qənaət ondan ibarətdir ki, insan kapitalına investisiya qoyulması və ölkənin inkişaf etməsi düz mütənasib amillərdir.

İnkişaf etmiş iqtisadiyyat əmək ehtiyyatlarının məşğulluğunu tələb edir. Ona görə də qlobal miqyasda ölkələr qarşısında duran problemlər sırasında yoxsulluğun azaldılması və əhalinin tam məşğulluğunun təmin edilməsi dayanmaqdadır. Ölkədə iqtisadi artımın əldə edilməsi heç də işsizliyin azaldılması demək deyildir. Əgər ölkədə əhalinin artım tempi real iqtisadi artımdan çox olarsa, əhalinin adambaşına düşən  ÜDM dəyəri az olacaqdır. Bu baxımdan iqtisadi artımın uzunmüddətli perspektivdə iş gücü qüvvəsinin keyfiyyətinin artırılmasını tələb edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə əhali arasında diskriminasiyanın azaldılması, digər ölkələrlə inteqrasiya, gəlir bölgüsündə bərabərsizliyin aradan qaldırılması, gender amillərinin nəzərə alınması böyük əhəmiyyət daşıyır. Bu amillərin nəzərə alınması özünü müəssisə və bütövlükdə dövlət miqyasında əhəmiyyətli dərəcədə hiss etdirir.

# II Fəsil ÖLKƏLƏR ÜZRƏ İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ ƏMƏK EHTİYATLARININ MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Dünya ölkələrində tətbiq olunan iqtisadi inkişaf modellərində əmək ehtiyatlarının yeri və vəzifəsi

Dünya ölkələrinə nəzər salsaq görərik ki, bəzi ölkələrin çox yaxşı təbii-coğrafi şəraiti, təbii ehtiyatları olmasına baxmayaraq iqtisadi inkişaf cəhətdən bu xüsusiyyətlərə sahib olmayan ölkələrdən dəfələrlə geridə qalmaqdadır. Bəs bu hansı amillə əlaqədardır?! Bu həmin ölkələrin həyata keçirdiyi struktur dəyişiklikləri və iqtisadi inkişaf modelləri ilə əlaqədardır. Hər bir ölkənin əsas məqsədlərindən biri iqtisadiyyatını inkişaf etdirməkdir. Lakin bu yolda hər bir ölkə müxtəlif nəticələr əldə edir. Bu müxtəliflik dərindən öyrənildiyi zaman məsələnin kökündə iqtisadi inkişaf modellərinin olduğu ortaya çıxır. Dünyada müxtəlif mülkiyyət formaları olduğu üçün iqtisadi inkişaf modelləri də öz müxtəlifliyi ilə seçilir. Bəzi iqtisadi inkişaf modellərinə nəzər salaq.

**ABŞ iqtisadi inkişaf modeli:** Amerika uzun bir dövr ərzində təkamül edərək öz iqtisadi inkişaf modelini yaratmışdır. Hələ 1929-1933-cü il böhranı zamanı ölkədə sərt dövlət tənzimləmələri həyata keçirilmişdir. Bu dövrdə Amerikada yüksək işsizlik hököm sürməkdə idi. 1980-ci illərə qədər iqtisadiyyatda dövlətin rolu yüksək olmuşdur. Bu dövrdən sonra tədricən iqtisadiyyata dövlətin rolunun azaldılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Hal-hazırda mövcud olan ABŞ iqtisadi inkişaf modelinin özünəməxsus xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- ✓ İqtisadi proseslərə dövlətin zəif müdaxiləsi;
- ✓ Özünü tənzimləyən bazar mexanizmi;
- ✓ Dövlət mülkiyyətinin çəkisinin azlıq təşkil etməsi;
- ✓ Dəyişən bazar mexanizminə tez adaptasiya olma;
- ✓ İqtisadiyyata innovasiyaların tətbiq edilməsi;
- ✓ Sahibkarlığın ölkə miqyasında təşviq edilməsi;

Liberal iqtisadi model olan Amerikan iqtisadi inkişaf modelində şəxsiyyət azadlığına xüsusi önəm verilir. Dövlət əsasən tənzimləyici rol oynayır və ölkənin iqtisadi sferalarında şəffaflıq hökʹüm sürür. ABŞ iqtisadi modelində gəlirin qeyri-bərabər bölgüsü hökm sürür, lakin bu sağlam rəqabətin əsas göstəricisi olaraq qəbul edilir.

Bildiyimiz kimi ölkənin inkişafının əsas şərtlərindən biri kimi təhsil əsasas götürülür. Bunu nəzərə alaraq Amerika modelində önəmli olan nüanslardan biri də iqtisadi siyasətdə elm adamlarının idarəetmədə yuxarı pillələrdə yer almasıdır. Ölkədə R.Reyqanm dövründə yaradılmış "İqtisadi Məsləhətçilər Şurası", B.Klintonun dövründə yaradılmış "Milli İqtisadi Şura" hələ də fəaliyyətini davam etdirməkdədir. Bunlardan başqa təhsili dəstəkləyən bir sıra ictimai qurumlar da fəaliyyət göstərməkdədirlər.

**Yaponiya iqtisadi inkişaf modeli:** Yaponiya təbii ehtiyatlar baxımından kasıb, nisbi olaraq kiçik bir sahədə məskunlaşmış, əhalisi 120 milyonu keçən bir ada dövlətidir. Qeyd edilən təbii ehtiyatlara sahib və II Dünya Müharibəsində məğlub olmasına rəğmən Yaponiya qısa bir müddətdə iqtisadiyyatını ayağa qaldırmağı bacarmış, eyni zamanda dünyanın ikinci böyük iqtisadi gücü halına gəlmişdir. Yaponiyanın ikinci Dünya Müharibəsindən sonra sürətli inkişafı demək olar ki, bütün dünya ölkələrinin diqqətini öz ürərinə çəkmişdir. Bütün bunlar isə "Yapon möcüzəsi" adlandırılan iqtisadi inkişaf modelinin nümayiş etdirdiyi səriştələr idi.

Yapon iqtisadiyyatında hər kəsi maraqlandıran məsələ o olmuşdur ki, necə oldu ki, 1854-cü ilə qədər Çin və Koreya istisna olmaqla digər ölkələrlə nadir hallarda və ya istəksiz olaraq əlaqədə olan Yaponiya bugünkü Yaponiyaya çevrilməyi bacara bildi.Bütün bunlar ölkənin iqtisadi, siyasi və sosial institutlarının ciddi islahatlar aparması sayəsində mümkün oldu. Zaman keçdikcə artıq başa düşüldü ki, ölkədə feodal sisteminin hakim olması, digər dövlətlərdən təcrid olma, iqtisadi cəhətdən gerilik ölkəni məhv olmağa aparır.

Yapon iqtisadi inkişaf modeli ümumi milli mənafenin ayrı-ayrı fərdlərin mənafeyindən üstünlüyü, əmək məhsuldarlığının artımının əmək haqqından yüksək

olması, dünya bazarında yüksək rəqabət qabiliyyətli məhsul istehsalınınn təmin edilməsi prinsipləri üzərində qurulmuşdur və iqtisadi inkişafın tənzimlənməsində dövlət fəal rol oynayır. Bu da Yapon modelini fərqləndirən cəhətlərdəndir. Yapon hökuməti ölkədə elə bir mühit yaratmağa müvəffəq olmuşdu ki, burada insan amili istehsalın səmərəliliyinin başlıca səbəbinə çevrilmişdir.

Yapon iqtisadi inkişaf modelində milli məqsədlərə nail olmaq üçün əmək, kapital və dövlətin səmərəli, perspektiv qarşılıqlı əlaqəsi, istehsal prosesində kollektivlik, əməkdaşlıq, insan amilinə güclü arxalanmaq prinsipləri əsas rol oynayır.

**Latın Amerikası modeli:** Latın Amerikası hərtərəfli və müstəqil iqtisadi inkişaf üçün bütün təbii və əlverişli imkanlara malikdir. Belə yüksək təbii imkanlara malik olan regionun ölkələrində təəssüf ki, məhsuldar qüvvələrin inkişafı hələ kifayət səviyyəyə çatmamışdır. Regionun ölkələri arasında iqtisadi inkişaf səviyyəsi, adambaşına düşən milli gəlir olduqca müxtəlifdir.

Qeyd etmək lazımdır ki, hazırda Latın Amerikasında sabit iqtisadi inkişaf meyli müşahidə edilməkdədir. Üstəlik, daxili siyasi sabitlik də möhkəmlənməkdədir ki, bu da çox önəmlidir. Beynəlxalq birliyin fəal rol oynadığı bir sıra razılaşmaların bağlanmasından sonra vəziyyət mürəkkəb və uzun sürən daxili silahlı münaqişələrdən demokratik inkişafa keçməyə imkan verdi ki, bu zaman konstitusiyaya əsaslanan dövlət institutları getdikcə daha çox möhkəmlənir, siyasi mübarizə isə hüquqi meydanda aparılır.

**Afrika modeli:** Əslində iqtisadi inkişaf və Afrika modeli bir-birinin əksi olan anlayışlardır. Çünki bu qrupa aid ölan ölkələrin inkişafa nail ola bilmələri üçün ciddi addımlar atmağa ehtiyacları vardır. Sosial, iqtisadi, mənəvi, psixoloji həyat şəraitinin acınacaqlı vəziyyətdə olması bu modelə xas əlamətdir. Bütün bunların əsas səbəbi isə təhsil siteminin geri olması ilə əlaqədardır. İnkişaf etmiş ölkələrin maliyyə dəstəyi olmasa bu modelin aid olduğu ölkələrdə iqtisadi vəziyyət daha da acınacaqlı olardı. Bu modelə ixtisassız əməkdən israfçılıqla istifadə edilməsi, iqtisadiyyata digər dövlətlərin birbaşa müdaxiləsi, ölkədə əmək münasibətlərinin inkişaf etməməsi, demokratik münasibətlərin zəif olması kimi neqativ hallar xarakterikdir.

Ölkələrin iqtisadi inkişafa nail olması üçün mühüm addımlar atılmalıdır. Bu sırada əsas hədəf isə insan resursları olmalıdır. Ölkələrdə səhiyyənin çox aşağı səviyyədə olması, ana sağlamlığının pis vəziyyətdə olması, uşaq ölümlərinin çox olması, təhsil səviyyənin, həyat səviyyəsinin aşağı olması modelin mənfi tərəfləri sırasındadı. İlk növbədə bu problemlərin aradan qaldırılması əsas hədəflər sırasında yer almalıdır. Digər əsas məsələ ölkələr arasında qarşılıqlı əlaqələrin zəif olmasındadır. Bu isə ixrac potensialının azalmasına gətirib çıxarır. Digər bir məsələ də digər İnkişaf Etmiş Ölkələrin iqtisadiyyatında asılılıqdır. Bunun qarşısının alınması üçün daxili bazar inkişaf etdirilməlidir. İlk növbədə isə ölkələrdə düzgün əmək münasibətləri qurulmalı, demokratik proseslər təlqin edilmədir.

**Çin modeli:** Çin özünəməxsus mədəniyyəti, zəngin tarixi keçmişi olan, əhalisinin sayına görə dünyada birinci yerdə duran və xüsusi ilə son bir-neçə onillikdə sürətlə inkişaf edən iqtisadiyyatı ilə diqqət mərkəzində olan bir ölkədir. Çinin bugünkü böyüməsi və dünya iqtisadiyyatında önəmli yer almasının əsas səbəbi xarici ticarətə əsaslanır. Çin 1978-ci ildə həyata keçirilən bazar islahatı ilə əvvəlcə özünü təmin etmə və xaricə qapalı iqtisadi modeldən imtina etmişdr. Beləliklə, xarici ticarətin miqdarı əvvəllər heç vaxt görülməmiş miqdarda artmış və ölkədəki iqtisadi artım bu şəkildə əldə edilməyə başlanılmışdır.

Həyata keçirdiyi islahatların nəticəsində Çinin əldə etdikləri sırasına aşağıdakıları aid edə bilərik:

**Elm və texnologiyanın inkişafı:** Robort və komputer texnologiyasında önəmli nailiyyətlərin əldə edilməsi, dəniz altının tətbiq edilməsi üçün yeni avadanlıqların yaradılması, kosmosda tətqiqat işlərinin aparılması üçün texnologiyaların təkmilləşdirilməsi bu sahədə həyata keçirilən əsas işlər sırasındadır.

**Digital iqtisadiyyat:** Çin demək olar ki, mobil ödənişlərin həyata keçirildi ölkələr siyahısında birinci yerdə dayanmaqdadır.

**Ətraf mühiti qorunması:** Çin 2018-ci il üçün ətraf mühitin qorunması üçün 49,7 milyard yuan (təxminən 7,5 milyard dollar) ayırmışdır.

**Yoxsulluğun azaldılması və insan inkişafı:** Çinin həyata keçirdiyi yoxsulluqla mübarizə siyasətinə görə 2020-ci ilə qədər yoxsulluq problemini aradan

qaldırmaq istəyir. Çinin bu səyləri "2030 - Davamlı İnkişaf Hədəfləri"nin reallaşdırılması mövzusunda bütün ölkələrə ilham və ümid verir. Son on beş il ərzində dövlət davamlı olaraq yoxsulluğun azaldılması, hər kəsin əsas təhsil ilə təmin edilməsi, qadın və uşaqlara təməl səhiyyə xidmətlərinin göstərilməsi, yoluxucu xəstəliklərlə mübarizə və ətraf mühitin qorunması mövzusunda böyük inkişaflar əldə etmişdir. Çində aparılan islahatlardan bu günə qədər keçən 30 ildən çox müddət ərzində 700 milyonluq bir əhali yoxsulluqdan qurtarılmışdır.

Çin Xalq Respublikası hal-hazırda ÜDM-in həcminə görə dünya ölkələri arasında ikinci yerdədir. Bu sahədə aparılan tədqiqatlar sırasında Çin iqtisadi inkişaf modeli təhlil olunmuş və onun xarakterik xüsusiyyətləri aşkarlanmışdır. Çinin iqtisadi inkişaf modelində səciyyəvi xüsusiyyətləri aşağıdakılardır.

- ✓ Çin özünün həyata keçirdiyi siyasətdə sosializm sistemini, iqtisadiyyatda isə kapitalizmi dəstəkləməklə özünün iqtisadi inkişaf modelini yaratdı;
- ✓ Kapitalizmə keçid birbaşa deyil, müəyyən mərhələlərlə həyata keçirilmişdir. İlk növbədə rayon və əyalətlərdə tətbiq edilmiş, müsbət nəticələr əldə etdikdən sonra ölkə iqtisadiyyatı üzərində tətbiq edilməyə başlanılmışdır.
- ✓ Sakit okean sahili ərazilərdə yüksək dərəcəli vergilərə güzəştlərin tətbiq edilməsi ölkəyə xarici investorları cəlb edərək iqtisadi zonaları yaratdı.
- ✓ Dövlət iqtisadiyyatda mühüm rol oyanır. Çin öz təcrübəsi ilə bir daha sübut edir ki, dövlətin iqtisadiyyata müdaxilə etməsi ölkəni tənəzzülə yox, iqtisadi inkişafa aparır.
- ✓ Ölkədə varlı iş adamlarının ölkə iqtisadiyyatına kapital qoyması üçün diaspora fəaliyyəti qurulmuşdur.

Ümumiyyətlə, ölkələr üzrə İqtisadi İnkişaf Modellərinin qəbul edilməsi onların sistemli şəkildə inkişafını təmin edir və inkişafın davamlılığının təmin edilməsinə şərait yaradır.

## 2.2. Ölkələr üzrə iqtisadi inkişaf göstəricilərində əmək ehtiyatlarının rolu

Ölkələrin inkişaf səviyyələri milli gəlirlə birlikdə insanların xüsusiyyət və bacarıqlarını əhatə edən insan kapitalı anlayışı ilə də müəyyən edilməkdədir. İnsan kapitalı bir cəmiyyətdəki bütün fərdlərin bilik, bacarıq və təcrübələrini istehsal prosesində əks etdirir. Buna görə də iqtisadi ədəbiyyatlarda insan kapitalı ölkənin iqtisadiyyatının inkişaf göstəriciləri olan böyümə və inkişaf konsepsiyaları ilə əlaqədardır.

Ölkə iqtisadiyyatları üçün başlıca problem sərvətin yaradılması deyil, sərvəti yaradacaq potensialın yaradılması, yəni beyin gücünün yaradılmasıdır. İnsana edilən yatırımlar iqtisadiyyatın inkişafına daha çox təsir etsə də fiziki kapital və insan kapitalı bir-birinin tamamlayıcısı olaraq effektif şəkildə istifadə edilməlidir.

Ölkələrin inkişaf səviyyəsini müəyyən etmək üçün ömür müddətinin uzunluğu, yetişkin insanların savadlılıq səviyyəsi, gənc əhali nisbəti, internet istifadə nisbəti, səhiyyə xərcləri kimi faktorlardan istifadə edilir.

İnkişaf insanlığın ortaya çıxdığı vaxtdan bəri mövcud olan, son əlli ilin ən önəmli araşdırma mövzusu olan məsələlərdən biridir. Ölkələrin inkişaf səviyyələrinə təsir edən bir çox faktorlar mövcuddur, çünki hər ölkənin siyasi, sosial və iqtisadi quruluşunun fərqli olması səbəbi ilə inkişaf yalnız bir kriteriyaya dayandırılmamaqdadır. İnkişaf göstəricilərinin başında bütün ölkələr üçün hesablanması asan olan adam başına düşən milli gəlir göstərilməkdədir, ancaq inkişafı yalnız gəlir səviyyəsi ilə qiymətləndirmək doğru deyildir. Bir ölkədə milli gəlir səviyyəsinin yüksək olması o ölkənin inkişaf etmiş ölkə olması demək deyildir. Bəzi ölkələr iqtisadi cəhətdən inkişaf etsələr də, sosial problemlər davam etməkdədir. İnkişaf sadəcə kəmiyyət ölçülərinə əsaslanmamalıdır, bununla bərabər mədəni cəhətdən də inkişafı özündə ehtiva etməlidir. Son dövrdə inkişaf modelləri iqtisadi inkişafı insan kapitalı, texnoloji inkişaf və araşdırma işlərinin genişləndirilməsi kimi faktorlarlada izah etməyə çalışırlar.

Müasir dövrdə ABŞ, İngiltərə və Yaponiya kimi sənayecə inkişaf etmiş ölkələrin iqtisadiyyatının inkişaf etməsində səbəb ənənəvi istehsal sistemi ilə yanaşı

insan və fiziki katipalın keyfiyyətini artıran bilik və texnoloji ikişafın təmin edilməsidir. Yaponiya, Tayvan və bəzi bir sıra Avropa ölkələrinin iqtisadiyyatda insan ehtiyatlarına sərmayə qoymaları iqtisadiyatın inkişafında önəmli rol oynamışdır. Bu ölkələr bir yandan texnoloji sahələrdə yeniliklərə imza atmış, digər yandan əmək ehtiyatlarının təhsilinə külli miqdarda sərmayə ayırmışdır. Təhsil səviyyəsi dəyişən texnologiya ilə ayaqlaşmaya köməklik göstərərkən digər yandan istehsalat və xidmət sahələrində məhsuldarlığı artırmağa, iqtisadi artıma təkan vermişdir.

Yaponiya Uzaq Şərqin inkişaf etmiş ölkələri arasında xüsusi əhəmiyyətə malikdir. Yaponiya iqtisadi artım və onun nəticəsində meydana çıxan milli inkişafın insan və sosial kapital artımı, milli gəlir səviyyəsinin artması, ictimai rifahın yüksəlməsi arasında güclü və birbaşa əlaqəni konkret olaraq ortaya çıxarmaqdadır. Ancaq neft ilə zəngin ölkələrdə vəziyət tamamilə fərqlidir. İqtisadiyyatları yaxşı olan bu ölkələr görüləcək işlərdə xarici işçi qüvvələrindən faydalandığı üçün insan kapitalı cəhətdən inkişaf etməməkdədirlər. Sadəcə fiziki kapital kifayət etsə idi, Səudiyyə Ərəbistanı, Liviya, Qatar kimi ölkələr ən inkişaf etmiş ölkələr sırasında zirvələrdə yer ala bilərdilər. Ancaq bu ölkələrin insan kapitalına kifayət qədər önəm verməməsi iqtisadiyyatlarını daha az inkişaf etmiş ölkələr sırasında olmağa gətirib çıxarır.

Ölkələrin insan inkişafına ayırdığı diqqət və qayğını ölçmək üçün 1990-cı ildən bu günə qədər hər il BMT İnkişaf Proqramı tərəfindən İnsan İnkişafı İndeksi tərtib edilir. Bu indeks əhalinin rifah səviyyəsini orta ömür müddəti, təhsil səviyyəsi, layiqli yaşam səviyyəsi kimi göstəricilər əsasında ölkələr üzrə müqayisələr aparır və onların tutduğu mövqe müəyyənləşir.

2018-ci ilin İnsan İnkişafı İndeksinə nəzər salsaq 189 ölkə üzrə hazırlanmış göstəricilərin 2017-ci il ilə çox yaxın göstəricilər olduğunu görə bilərik. Qrafikdən də göründüyü kimi bu ölkələrdən 59-u çox yüksək, 53-ü yüksək, 39-u orta, 38-i aşağı göstəriciyə sahib olmuşdur. 2010-cu ildə aşağı göstəriciyə sahib olan dövlətlərin sayı isə 49 olmuşdur.

**Qrafik 1: İnsan İnkişafı İndeksi göstəricilərinə görə ölkələrin sayı**




**Mənbə:** UNDP – Human Capital İndex 2018
**Link:** https://www.worldbank.org

Cədvəldən də göründüyü kimi hazırlanmış siyahının ilk beşlik siyahısında Norveç (0.953), İsveçrə (0.944), Avstraliya (0.939), İrlandiya (0.938) və Almaniya (0.936) olmuşdur. Son beşlik siyahıda isə Brundi (0.417), Çad (0.404), Cənubi Sudan (0.388), Mərkəzi Afrika Respublikası (0.367) və Nigeriya (0.354) yer almaqdadır.

**Cədvəl 1: İnsan İnkişafı İndeksində ölkələrin yerləşməsi**

| Siyahının ilk beşliyində yer alan dövlətlər | Siyahının son beşliyində yer alan dövlətlər |
|---|---|
| Norveç | Brundi |
| İsveçrə | Çad |
| Avstraliya | Cənubi Sudan |
| İrlandiya | Mərkəzi Afrika Respublikası |
| Almaniya | Nigeriya |

**Mənbə:** UNDP – Human Capital İndex 2018
**Link:** https://www.worldbank.org

Hesabat qlobal səviyyədə həyat keyfiyyətinin sürətlə artmasını göstərir, lakin dünyada hələ də bir çox ölkədə insanlar mövcud bərabərsizlikdən əziyyət çəkir. Bərabərsizlik 2018-ci ilin İnkişaf indeksinin əsas maddəsi olmuşdur. Hesabata görə

çox yüksək insan inkişafı indeksinə sahib ökələrin vətəndaşları (Norveç) aşağı göstəriciyə sahib ölkələrin vətəndaşlarından (Nigeriya) 19 il daha çox ömür yaşayırlar. Yenə də insan inkişafı indeksindəki Norveç, İsveçrə, Avstraliya kimi ölkələrin vətəndaşları Nigeriya, Mərkəzi Afrika ölkəsi Cənubi Sudan kimi ölkələrdən 7 il daha çox təhsil alırlar.

BMTİP-in 2018-ci il yeni məlumatlarına əsasən ölkələr üzrə adambaşına düşən ən yüksək gəlir ilə ən aşağı gəlir arasında 176 dəfə fərq vardır.




**Mənbə:** UNDP – Human Capital İndex 2018
**Link:** https://www.worldbank.org

Qrafikdən də göründüyü kimi İnsan İnkişafı İndeksi 2018-ə nəzər saldıqda Azərbaycanın bu siyahıda 80-ci pillədə qərarlaşdığını görərik. Qonşu dövlətlərdən Rusiya 49, Gürcüstan 70, Türkiyə 64, Ermənistan 83, İran 60-cı pillədə qərarlaşıb.

Norveç və Azərbaycan hər ikisi neft ölkəsi olsa da, birinin qeyd edilən siyahıda birinci, digərinin isə 80-ci sırada olması adları çəkilən ölkələrdə insanların neft gəlirlərindən nə dərəcədə faydalandığını göstərir. Bunun əsas fərqi Norveçin dünyanın ən demokratik ölkələrindən biri olmasıdır. Ölkədə iqtisadi idarəetmə modeli bazar iqtisadiyyatıdır. Norveç dünyanın ən yüksək həyat səviyyəsi olan beş ölkəsindən biri sırasındadır. Dövlət idarəçiliyi sisteminin mükəmməlliyi isə Norveç

vətəndaşlarının faktiki olaraq problemsiz həyat yaşamasına şərait yaradıb. Azərbaycanda isə bütün bunların əksini görürük. Norveçdə həyata keçirilən siyasət göstərir ki, təbii sərvətlərin satışından əldə olunan maliyyə vəsaitlərindən səmərəli istifadə yalnız qanunun aliliyi şəraitində mümkündür.

Norveçin siyahının lideri olmasını şərtləndirən amillərinə aşağıdakıları aid edə bilərik:

- ✓ Adambaşına düşən ÜDM-in yüksək olması;
- ✓ ÜDM-də təhsil, səhiyyə xərclərinin yüksək olması;
- ✓ İctimai həyatda qadınların yüksək fəallığı;
- ✓ Neft gəlirindən səmərəli istifadə. Əldə olunan gəlirin bir tərəfdən neft-kimya, neft-maşınqayırma sahələrini inkişaf etdirir, digər tərəfdən insan kapitalına ciddi investisiyalar qoyulur.

Norveç təbii resurslara sahib olan bir ölkədir, lakin onun bu inkişafı təhsilli əmək ehtiyatı sayəsində mümkün ola bilmişdi. İnsan kapitalı ehtiyatının güclü olması Norveçin iqtisadi yüksəlişinin arxasında duran əsas amildir. Təbii resurslar ikinci dərəcəli amillər arasındadır. Təcrübə Yaponiya, Sinqapur kimi ölkələrin miqyasında sübuta yetirdi ki, insan kapitalı təbii resurslarsız da yaşayış standartlarını, həyat səviyyəsini yüksəldə bilər. Eyni zamanda təbii ehtiyatları kifayət qədər, lakin bilikli insan kapitalına sahib olmamaq inkişafa çox az təsir göstərir və ya onu daha da pisləşdirir( Konqo).

Hər bir cəmiyyətdə əhalinin əmək prosesində məşğul olması əmək ehtiyatlarının əsas iqtisadi məzmununu ifadə edir. Bəzi ölkələrdə iqtisadi inkişafın təminatında məşğulluq siyasəti modellərindən istifadə edilir. Bunlardan ABŞ, Yapon və İsveç modelləri ilə tanış olaq.

ABŞ modeli: Bu modelin xarakterik xüsusiyyətləri sırasına mərkəzləşdirilmiş əmək bazarının olması, ştatların məşğulluq və işsizliyə kömək göstərməsi, işsizlərin sığortalanması üçün fondların olması daxildi. ABŞ-da müəssisələrdə struktur dəyişiklikləri zamanı işçilərin işdən azad edilməsi zərurəti yaranarsa, bu oların iş saatının azaldılması ilə deyil, birbaşa azad olma ilə tamamlanır. Burada bir il üzrə gənclərin 20-30%, digər işçilərin isə 10%-i öz daimi iş yerlərini dəyişirlər. ABŞ

digər inkişaf etmiş ölkələrlə müqayisədə işsizik səviyyəsi yüksək olan ölkələr sırasındadır.

Yapon modeli: ömürlük iş yeri ilə təminat, mütəşəkkil daxili bazarın olması bu medelin xarakterik xüsusiyyətləri sırasındadır. Əhalinin bir müəssisədə uzun müddətdə işləməsi onların sahib olduğu vəzifələrdə ixtisaslaşmasına səbəb olur. Yaponiyada iş yerinə bağlılıq, müəssisə və işçi qarşılıqlı əlaqəsi olduqca güclüdür. Əmək ehtiyatlarına humanist yanaşılması müəssisələrin və dolayısı ilə ölkənin inkişafına gətirib çıxarır.

İsveç modeli: Bu modelin xarakterik xüsusiyyətinə isə dövlətin məşğulluq sahəsində fəal siyasəti, bunun nəticəsində işsizliyin minimum səviyyədə olması, işsizlik sahəsinə yönəldilən əsas vəsaitin yeni iş yerlərinin açılmasına deyil, onların rəqabətqabiliyyətinin artırılmsına istiqamətlənməsi daxildir.

### 2.3. İEÖ və İEOÖ-in iqtisadi inkişafında əmək ehtiyatları arasındakı fərqlər

İnkişaf - çox istiqamətli qüvvə sərf edilməsini tələb edilən və mərkəzində insanın yer aldığı uzunmüddətli bir prosesdir. Dünya ölkələrinin mövcud quruluşu nəzərə alınaraq beynəlxalq təşkilatlar tərəfindən ölkələr az inkişaf etmiş, inkişf etməkdə olan və inkişaf etmiş ölkələr olarq qruplaşdırılmışdır. Qruplaşdırmanın nəticəsində meydanan çıxan fərqliliklərə əsasən qarşıya qoyulan əsas məqsəd az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə inkişafa nail olmaq, inkişaf etmiş ölkələrdə isə inkişafın davamlılığınn təmin edilməsi olmuşdur.

Hazırda elm və texnologiya sürətlə inkişaf edir, dəyişir və yenilənir, yeni informasiyalar, biliklər meydana çıxır. Müasir dövrdə qlobal miqyasda əmək ehtiyatını izah edən əsas anlayış insan kapitalıdır. İnsan kapitalı iqtisadiyyatın inkişafına stimul yaradan əsas amillərdən biridir. İEÖ-də iqtisadiyyat insan kapitalı nəzəriyyəsi əsasında fəaliyyət göstərdiyi üçün daim inkişaf edərək təkmilləşir, rəqabətqabiliyyətliliyi artır. Aparılan araşdırmalar sübut etmişdir ki, İnkişaf Etmiş Ölkələrin milli sərvətinin əsas hissəsini insan kapitalı təşkil edir (70%-dən çox

hissəsini). Bu da öz növbəsində bir daha təsdiq edir ki, İEÖ-lər üçün inkişafda əsas yeri sənaye kapitalı, təbii resurslar deyil insan kapitalı təşkil edir.

Bazar iqdisadiyyatı şəraitində iş qüvvəsinin xalq təsərrüfatının müxtəlif sahələri arasında bölgüsü, əməyin fərdi məhsullarının mübadiləsinə imkan verən, məhsulların dəyəri vasitəsilə həyata keçirilir. Məhsuldar qüvvələrin inkişaf etməsi, ictimai əmək məhsuldarlığının daim artması xalq təsərrüfatının strukturunda əsaslı dəyişikliklərə səbəb olur ki, bu da iş qüvvəsinin bir istehsal sahəsindən digərinə keçməsinə, eləcə də qeyri - istehsal və istehsal sahələri arasında əmək ehtiyatlarının yenidən bölgüsünə gətirib çıxarır. Bazar iqdisadiyyatı şəraitində iş qüvvəsinin mübadiləsi həm onun alqı-satqı obyekti olması, həm də əmtəə istehsalının mövcudluğu ilə əlqaqədardır.

Müasir qloballaşma şəraitində əsasən də İEÖ-də əmək ehtiyatlarına strateji baxımdan yanaşılır. İşçilər artıq sahibkarlar üçün yalnız gələcəkdə gəlir gətirə biləcək və yalnız əmək normalarını icra edən insan deildir. İşçilərə istər onun əməyindən istifadə zamanı, istərsə də onun təkrar istehsalında sosial və iqtisadi amillər eyni dərəcədə nəzərə alınmalıdır.

Həmin səbəblərdən də işçi qüvvəsinini inkişafına kapital qoyuluşu, cari və gələcəkdə gəlir gətirən bir mənbə kimi, müəssisə və təşkilatların uzunmüddətli aktivi, onun vacib amili kimi yanaşılış və qiymət verilir. Ona görə də İEÖ-də xüsusi ilə də ABŞ və Yaponiyada iş qüvvəsi yalnız investisiya obyektinə çevriməmiş, həm də insan kapitalına qoyulan investisiya sürətlənmişdir ki, bu da işçi qüvvəsinin keyfiyyətinin və səmərəliliyinin yüksəlməsinə səbəb olmuşdur.

İEÖ-də əmək ehtiyatlarına bütün məşğul və işsiz əhali daxil edilir. Buna isə iqtisadi ədəbiyyatlarda eyni zamanda "iqtisadi fəal əhali" də deyilir. Bundan əlavə, statistik məlumatlarda "mülki iş qüvvəsi" kateqoriyası da nəzərə alınır. Son dövrlərdə İEÖ-də əmək ehtiyatlarının sahə quruluşunda iki əsas istiqamət üzrə dəyişiklik baş vermişdir. Bunlardan birincisi kənd təsərrüfatı ilə məşğul olan əhalinin sayının kəskin azalması, digəri isə xidmət sahələrinin miqyasının genişləndirilməsi və əhalinin əsasən bu sahələrdə işlə təmin olunması ilə əlaqədar olaraq məşğul olanların sayının artmasıdır.

Müasir elmi-texniki tərəqqi əmək ehtiyatlarının təhsilinə birmənalı dəyişikliklərə səbəb olur. Məna etibarı ilə yeni texnologiyalar əməyin xarakterinə üç cür təsir edə bilər: Onun tətbiq olunması nəticəsində:

- ✓ İstehsal sahəsində bir sıra funksiyalar ləğv edilə bilər;
- ✓ Onların əvəzində yeni funksiyalar yaradıla bilər;
- ✓ Digər funksiyalar maşın və texnologiyalarla dəyişdirilə bilər.

Bunlar isə nəticədə fiziki əməklə əqli əmək arasında nisbət göstəricisinin dəyişməsinə gətirib çıxarır. Yəni fiziki əməklə məşğul olan əhalinin sayı və xüsusi çəkisi azalaraq, zehni əməklə məşğul olan əhalinin sayı və xüsusi çəkisi artmaqdadır.

İnsan əməyinin səriştəlilik dərəcəsi yüksək olduqca, onun yaratdığı kapital da dəyərli olur, deməli belə kapitalın əldə etdiyi gəlirlər də (əmək haqqı) yüksək olmalıdır. İnkişaf etmiş ölkələrdə insan kapitalına sərmayə qoyuluşları cəmiyyət üçün ən effektiv və özünü ən tez doğruldan xərclər kimi qəbul edilir. İnsan kapitalı iqtisadi potensialın gücləndirilməsinin və ümumiyyətlə iqtisadi artımın ən mühüm amillərindən biri hesab olunur. Bu cür yanaşmada inkişaf sadəcə iqtisadi artım tempinin artması deyil, həm də insan kapitalına sərmayə qoyuluşu və yoxsulluğun azaldılması ilə ölçülür.

İnkişaf etməkdə olan ölkələrdə dövlət siyasətini formalaşdıran məmurlar və mütəxəssislər üçün insan inkişafı bir neçə sahədə faydalı ola bilər:

- ✓ İnsan inkişafı dövlət idarəçilərinə ümumi vəziyyəti çevik təhlil etmək üçün analitik çərçivə rolunu oynaya bilər. İnsan inkişafının göstəricilərinə-insan inkişafı indeksinə nəzər yetirməklə iqtisadi artımın nə dərəcədə sosial inkişafla tamamlandığını izləmək olar.
- ✓ İnsan inkişafı prioritet sahələrin müəyyənləşdirilməsinə kömək edir. ÜDM səviyyəsi yüksək olmasına baxmayaraq, insan inkişafının digər komponentlərindən hansısa (təhsil, savadlılıq, sağlamlıq, gender münasibətləri, ekoloji durum və gələcəkdə ÜDM səviyyəsini yüksək saxlamağa yardım edəcək başqa amillər) dövlət tərəfindən daha aqressiv, dinamik və radikal müdaxilə tələb edə bilər.

- ✓ İnsan inkişafı ölkənin iqtisadi artım potensialını müəyyən edir. Məsələn, davamlı iqtisadi artım üçün əlverişli makroiqtisadi strategiyaların təhlili və seçimini ölkədə olan insan kapitalının tərkibinə və keyfiyyətinə əsasən aparmaq olar (Hindistan nümunəsi).
- ✓ İnsan inkişafı düzgün idarəçilil sisteminin təşviq edilməsində böyük rol oynaya bilər.
- ✓ İnsan inkişafı öncədən xəbərdarlıq sistemi kimi əhəmiyyətli ola bilər. Ölkənin zəif cəhətləri-hər hansı regionda yoxsulluğun sıxlığı, təhsil səviyyəsinin kəskin fərqliliyi, məşğulluq sahəsində müəyyən qruplar arasında ayrı-seçkilik və ya erkən nikahların geniş yayılması və uşaqların müəyyən cinsinə görə abortların edilməsi kimi kəskin gender problemləri-diqqətdən kənar qalarsa, gələcəkdə nəinki insan inkişafına və ya iqtisadi artım tempinin zəifləməsinə mənfi təsir göstərə bilər, hətta münaqişələrə və zorakılıqlara səbəb ola bilər.
- ✓ İnsan inkişafı ölkənin zaman ərzində ümumi fəaliyyətini və gələcək perspektivlərini və çağırışlarını izləməyə kömək edir.

İEÖ və İEOÖ arasında əmək ehtiyatları arasında əsas fərqlərə aşağıdakıları qeyd edə bilərik:

- ✓ İEÖ ixtisaslı işçi qüvvəsinə sahibdir və onlardan fəaliyyəti istiqamətində istifadə olunur, lakin İEOÖ-in əksəriyyətində ixtisasız iş qüvvəsindən istifadə olunur və demək olar ki, onların əməyi istismar olunur;
- ✓ İEÖ-də əmək haqqı məbləği İEOÖ-lə müqayisə olunmyacaq dərəcədə yüksəkdir;
- ✓ İEÖ müəssisə miqyasında əmək ehtiyatların təhlükəsizliyinin təmin edilməsi məsələsinə daha həssas yanaşır;
- ✓ İEÖ-də əmək ehtiyatlarınn iş prosesində daha rahat olmaları üçün əlavə imkanlar yaradır. Son zamanlarda bəzi ölkələrdə həftəlik iş saatlarının azaldılması tətbiq olunmaqdadır;
- ✓ İEÖ-də işçi qüvvəsinin ixtisasının artırılmasına böyük məbləğdə investisiyalar ayırılır;

- ✓ İEÖ-də işçilərin maddi motivasiyası ilə yanaşı mənəvi motivasiyasına da ciddi yanaşılır və s.

# III Fəsil AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA ƏMƏK EHTİYATLARININ ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycanın iqtisadi inkişafda əmək ehtiyatlarından istifadənin keçmiş və indiki dövrə görə müqayisəli təhlili

Əhali cəmiyyətdə həm istehsalçı, həm də istehsal edilən məhsulun əsas istehlakçısı olmaqla önəmli rol oynayır. Azərbaycam Resublikasının Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək maddi və ictimai rifahın əsasıdır. Ölkəmizdə iqtisadi inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə məqsədi ilə dünya praktikasında geniş tətbiq olunana Milli İnkişaf Modeli hazırlanmışdır. Son dövrlərə qədər Azərbaycanın Milli İnkişaf Modeli istiqamətində sistemli bir araşdırma aparılmamış, praktik nəticələr nəzəri cəhətdən əsaslandırılmamış, bazar iqtisadiyyatına keçid prosesində həyata keçirilmiş tədbirlərin nəzəri əsası diqqətdən kənarda qalmış, bu sahədə əldə olunan elmi nəticələr dəyərləndirilməmişdir. Bütün bu proseslərin başlanılması 2008-ci il böhranından ölkəmizin minimum itki ilə çıxaraq dünya miqyasında böyük bir makroiqtisadi göstəricilərə sahib olması yolu ilə nail olmuşdur.

Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatının keçdiyi yolu dövr olaraq 3 mərhələyə ayıra bilərik: 1991-1996, 1996-2003, 2003-cü ildən bu günə qədər olan dövr. Hər bir dövr üzrə ölkə iqtisadiyyatının özünəməxsus xüsusiyyətləri olmuşdur.

Ölkəmiz 1991-ci ildə müstəqillik qazandıqdan sonra bazar iqtisadi sisteminə keçid, sosial-iqtisadi rifahın yaxşılaşdırılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi, dünyəvi və hüquqi dövlətin qurulması və başqa bu kimi məsələlər qarşıya qoyulmuş əsas məqsədlər olmuşdur. Lakin 1991-1995-ci illəri ümumilikdə götürsək ölkə iqtisadiyatına tənəzzül və xaos hakim olmuşdur. Artıq 1996-cı ildən başlayaraq makroiqtisadi sabitlik əldə edilmiş ,dinamik iqtisadi inkişafın təməli qoyulmuşdur.

Müstəqilliyimizin ilk illərində ölkədəki siyasi vəziyyət gərgin olaraq qalmaqda davam edirdi, erməni təcavüzü nəticəsində 20% torpağımız işğal altında qalmış, 1 milyondan çox qaçqın və məcburi köçkünümüz olmuşdur ki, bunların əksəriyyəti də

əmək qabiliyyətli olmasına baxmayaraq iş yerləri olmadığı üçün işsiz qalmış, hökümətin verdiyi cüzi miqdarda müavinətlər hesabına yaşamağa məcbur olmuşdurlar, iqtisadi sferada da vəziyyət acınacaqlı idi, belə ki, müəssisələr öz fəaliyyətini dayandırmaq məcburiyyətində qalmış, ölkədə inflyasiya və işsizlik artmış, əhalinin gəlirləri xeyli səviyyədə aşağı düşmüşdür.

Birinci mərhələ adlandırdığımız dövrdə aparılmış sistemsiz islahatlar büdcə kəsrinin artması, maliyyə-bank siteminin iflic vəziyyətə düşməsi, kredit borclarının artması, faiz dərəcələrinin yüksəlməsi, inflyasiyanın pik səviyyəyə çatması, əhali gəlirlərinin azalması, ölkə iqtisadiyyatına xarici sərmayələrin qoyulmaması və s. bu kimi neqativ hallara səbəb olmuşdur.

Bu mərhələdə Respublika əhalisinin orta illik artım sayı 3,6 dəfədən çox azalaraq 1960-1990-cı illərdəki 2,9%-dən 1991-1997-ci illərdə 0,8%, əhalinin orta illik artım sayı isə 1,7 dəfə azalaraq 110,5 min nəfərdən 63,5 min nəfərə düşmüşdür. Bütün bunlar isə öz növbəsində respublikanın başlıca məhsuldar qüvvələrini təşkil edən əmək potensialının formalaşması və artımına, habelə onun quruluşuna öz mənfi təsirini göstərmişdir. Belə ki, əgər 1980-1990-cı illərdə əmək ehtiyatlarının orta illik sayı 54,8 min nəfər artmışdırsa, 1991-1996-cı illərdə bu göstərici cəmi 12,8 min nəfər artmış və ya 4,3 dəfə azalmışdır. Bu dövrdə əhalinin əmək qabiliyyətli yaşından aşağı olanların xüsusi çəkisi azalaraq (0-15 yaşında) 38.0%-dən 33,3%-ə düşmüş, əvəzində əmək qabiliyyətli yaşında olanların (16-59 yaşında kişilər və 16-54 yaşında qadınlar) xüsusi çəkisi artaraq 51,5%-dən 54,1%-ə, əmək qabiliyyətli yaşından yuxan olanların xüsusi çəkisi isə 10,5%-dən 12,6%-ə qalxmışdır. Bu isə respublikada əhalinin demoqrafik qocalması prosesinin sürətlənməsi deməkdir. (http://www.e-qanun.az )

Ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiya olunması və sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə imza atması 1995-ci ildən etibarən başladı. Dövlət quruculuğu sahəsində aparılan iqtisadi islahatlar inkişafda yeni bir modelin – Azərbaycan modelinin formalaşmasının təməlini qoydu. İnkişafın ikinci mərhələsində modelin gerçəkləşməsinin rəsmi bazası kimi bir çox konsepsiya, strategiya və proqramlar qəbul edilmişdir. Model çərçivəsində qəbul edilmiş əsas

strateji hədəflər dünya iqtisadiyyatına inteqrasiya, müstəqil milli iqtisadiyyatın formalaşdırılması, ölkədə mövcud olan bütün potensialın təsərrüfat dövriyyəsinə cəlb edilməsi olmuşdur.

**Qrafik 2: 1996-2003-cü illər ərzində iqtisadi sahələrdə artım həcmi**




**Mənbə:** T.Hüseynov: "Azərbaycan Milli İqtisadi İnkişaf modeli: Nəzəriyyə və praktika", Bakı 2015

Görülən genişmiqyaslı işlərin nəticəsi olaraq 1996-2003-cü illər ərzində ümumi daxil məhsul 1,9 dəfə, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 1,3 dəfə, kənd təsərrüfatı istehsalının həcmi 1,5 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə, orta aylıq real əmək haqqı 5,1 dəfə artmışdır. Bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyalarn ümumi həcmi 20 milyard ABŞ dollarını keçmişdir. (T.Hüseynov, Bakı 2015)

1996-2003-cü illəri əhatə edən dövr ərzində məşğulluq sahəsində 1.3 % artım müşahidə edilmişdir. Bunun əsas səbəbi isə böhrandan yeni azad olan ölkədə müəssisələr sahib olduğu əmək ehtiyatlarını işdən çıxartmır, əksinə daha çox işləməyə vadar edirdilər. Lakin sonrakı illərdə inkişaf məşğulluğu böyük miqdarda artırmadı. Bunun səbəbi isə istehsalata çoxlu miqdarda əmək ehtiyatlarının tətbiqi idi, hansı ki, ixtisassız işçi qüvvəsindən istifadə məhsuldarlığın azalmasına gətirib çıxarırdı.

2003-2018-ci illərə nəzər salsaq ölkə iqtisaiyyatında çox mühüm dəyişikliklər baş vermişdir. Bunların sırasında həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçid prosesinin başa çatması, ÜDM-də özəl sektorun payının artmasını, ölkənin rəqabətqabiliyyətliliyinin yüksəlməsini misal göstərmək olar. Bu dövr ərzində regionların inkişafı sahəsində də ciddi addımlar atılmışdır: 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramları qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənov Prezident İlham Əliyevin 15 illik hakimiyyət dövrünün yekunlarına həsr olunmuş məqaləsində qeyd etmişdir *:*

*-" On beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub."*

**Qrafik 3: 2003-2018-ci illərdə iqtisadi sahələrdə artım**




**Mənbə:** Yuxarıda qeyd edilmiş mənbə əsasında müəllif tərəfindən hazırlanmışdır

Bəhs edilən dövr ərzində əmək ehtiyyatlarında istifadənin səmərəliliyi sahəsində də çox önəmli addımlar atılmışdır. Məşğulluğu təmin etmək və əmək ehtiyatlarından səmərəli istifadə etmək üçün Azərbaycan Respublikası Prezidentinin

2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006–2015-ci illər)" təsdiq edilmişdir. Bundan sonrakı dövr ərzində də məşğulluq sahəsində əsaslı qərarlar verilmiş qanunvericilik aktları qəbul edilmişdir. Nəticədə ölkədə yoxsulluq və işsizlik kimi göstəricilərdə azalma müşahidə olunmuşdur.

Bu gün də ölkəmizdə həyata keçirilən tədbirlərin əsasında əmək ehtiyatlarının keyfiyyətinin yüksəldilməsi əmək bazarında mövcud olan işçi qüvvəsinin səmərəliliyinin artırılması, əmək bazarlarının dünya standartlarına uyğunlaşdırılması, beynəlxalq təcrübədən istifadə, yeni təlim və təhsil proqramlarının hazırlanması və onların həyata keçirilməsi ilə reallaşdırılır. Bu isə ölkə üzrə əmək ehtiyatları arasında rəqabətin, xarici ölkələrdən işçi qüvvəsinin ölkəmizə marağının artmasına səbəb olur.

Ölkəmizin milli iqtisadi inkişaf modelinə xas olan əsas xüsusiyyətlərə isə aşağıdakıları aid edə bilərik:

- ✓ Dövlət iqtisadiyyatın tənzimlənməsində həlledici rol oynayır;
- ✓ Model sosialyönümlü xarakter daşıyır;
- ✓ İqtisadiyyatın modernləşməsi və innovativ inkişafı əsas prioritet hesab edilir;
- ✓ Ölkəmiz dünyanın inkişaf etmiş ölkələrinə inteqrasiya olunur;
- ✓ İnhisarçılığın məhdudlaşdırılması və rəqabət mühitinin formalaşdırılması əsas hədəflər sırasında yer alır.

Ölkəmizin iqtisadiyyatında keyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoyması milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinin artırılmsı,dayanıqlı inkişafa nail olunması, dünya iqtisadi sisteminə inteqrasiya olunması, iqtisadiyyatın sosialyönümlülüyünün inkişaf etdirilməsi üçün bir sıra fəaliyyətlər həyata keçirməlidir. Bunların sırasına: Ölkənin inkişafının bütövlükdə təmin eilməsi, bu sahədə regionaların inkişaf etməsi üçün sahibkarlığın dəstəklənməsi, insan kapitalına investisiya qoyulması, elmtutumlu sahələrin inkişaf etdirilməsi, bu sahələrin inkişafı üçün müvafiq güzəştlərin tətbiq edilməsi, təhsil sistemi dünya standartlarına cavab verməli, qeyri-neft məhsullarının ixracı üçün şərait yaradılmalı,

yoxsulluğun azaldılması istiqamətində əsaslı tədbirlər həyata keçirilməli, aztəminatlı əhalinin sosial müdafiəsi güclü olmalıdır.

Azərbaycanın inkişaf modeli kompleks bir inkişaf modelidir. Burada neft gəlirlərindən əldə edilən imkanlardan yararlanaraq iqtisadi inkişafla eyni istiqamətli hərəkət edərək insanların sosial rifahının yaxşılaşdırılması, təhsil sisteminin inkişafı ilə qara qızılın "insan kapitalına" çevirilməsi prosesi baş verir ki, bunun da son nəticəsində model insan inkişafına xidmət etmiş olur. Eyni zamanda iqtisadiyyatın inkişaf etdirilməsi infrastrukturun yeni və müasirləşməsinə, səhiyyə sahəsinin inkişaf etdirilməsi tibbi xidmətin keyfiyyətinin artmasına, tibbin inkişafı insanların sağlam həyat tərzinin təmin edilməsinə şərait yaradır.

## 3.2. Azərbaycanda əmək ehtiyatlarının inkişafına strateji baxış

Öz müstəqilliyinin 28-ci ilində olan Azərbaycan bu yolun qət edilməsində çətin bir sınaqdan keçmişdir. Qeyd etdiyimiz kimi müstəqilliyin ilk illərində istər iqtisadi, istər siyasi, istərsə də sosial sferada vəziyyət acınacaqlı olmuşdur. Lakin bu yolda dövlətimiz heç zaman geri çəkilməmiş, müstəqilliyimizin davamlı olması üçün əlindən gələni əsirgəməmişdir. Bu yolda atılan ilk addım isə siyası sabitliyin təmin edilməsi olmuş, həmçinin ölkədə hökum sürən hiperinflyasiyanın qarşısının alınması üçün sosial sferada da islahatlara başlanılmışdır.

Həmin dövrlərdə Azərbaycanı bu çətin vəziyyətdən çıxaran əsas amil karbohidrogen ehtiyatları olmuşdur, həmçinin iqtisadi sahədə aparılan islahatlar çərçivəsində inzibati amirlik sistemi öz yerini sərbəst rəqabət münasibətləri ilə əvəz etmiş, dövlət mülkiyyətinin özəlləşdirilməsi, bazar iqtisadi sisteminin formalaşdırılması istiqamətində əsaslı addımlar atılmış, torpaq kimi bir çox sahələrdə yeni islahatlar həyata keçirilmişdir.

Dövlətin apardığı bütün bu kimi islahatların heç biri nəticəsiz qalmamışdır, 2004-2014-cü illərə nəzər salsaq görərik ki, Azərbaycan özünün iqtisadi inkişaf və tərəqqi dövrünü yaşamışdır. Lakin 2014-cü il ölkəmiz üçün yeni bir mərhələnin başlanğıcını qoydu. Həmin ildə dünya miqyasında neftin qiymətinin kəskin sürətdə aşağı düşməsi ölkəmiz üçün də təsirsiz ötüşmədi, 2015-ci ilin ikinci yarısında ölkədə

2 dəfə devalivasiya baş verdi. Mənfi təsirlər özünü tədiyyə balansında, iqtisadi aktivlikdə biruzə verməyə başladı. Maliyyə sabitliyinin təmin edilməsində, xarici borcun ödənilməsində risklər artmışdı, bu isə dövləti iqtisadi sahədə instutisional islahatların həyata keçirilməsinə sövq etmişdir. Artıq keçmiş dövrün təhlil edilməsi və gələcək üçün yeni  strategiyanın hazırlanmasına ehtiyac duyulurdu.

Bildiyimiz kimi 2016-cı il 16 mart tarixində Azərbaycan Respublikası Prezidentinin 1897 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" üzrə Sərəncamı ilə milli iqtisadiyyat və sayı ümumilikdə 12 olmaqla iqtisadiyyatın 11 sektoru üzrə Strateji Yol Xəritəsi hazırlanmışdır. Bu proqram çərçivəsində isə qarşıya dörd əsas istiqamət üzrə məsələlər qoyulmuşdur: (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi)

- ✓ **Fiskal və monetar siyasətin uzlaşdırılması:** Azərbaycanda fiskal dayanıqlılıq təmin ediləcək və monetar siyasət üzən məzənnə rejimi üzərində qurulacaqdır;
- ✓ Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin ediləcək;
- ✓ **İnsan kapitalının inkişafı:** bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaqdır;
- ✓ Biznes mühitinin daha da yaxşılaşdırılması.

Mövzumuz əmək ehtiyatlarının inkişafına həsr olunduğu üçün strateji hədəflər içərisində əsasən insan kapitalının inkişafından söz açılacaqdır. Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, insan kapitalı özündə 4 meyarı birləşdirir: **Təhsil, səhiyyə, əlverişli mühit, məşğulluq və iş qüvvəsi**. İndi isə ölkəmizdə bu sahələrin hansı vəziyyətdə olması ilə yaxından tanış olaq.

**Təhsil:** Beynəlxalq miqyasda qəbul edilən tərifə görə **təhsil** şəxsiyyətin davranış və bacarıqlarının inkişaf etdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli cəhətdən yetkinliyə çatır və fərdi inkişafa nail olur. İnsan kapitalının ölkənin rəqabətqabiliyyətliliyinin təmin olunmasında, onun xarici bazara

inteqrasiyasında, əmək məhsuldarlığının təmin edilməsində, iqtisadi inkişafın davamlılığının təmin edilməsində əvəzsiz rolu var. Buna nail olmaq üçün təhsil proqramı çərçivəsində qeyd etdiyimiz xüsusiyyətlərin əldə olunması qarşıya qoyulmuşdur:

- ✓ Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi;
- ✓ Təlimlər vasitəsi ilə işçilərin bacarıq və biliklərinin inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi;
- ✓ İxtisaslı kadr hazırlığının əmək bazarının müasir tələblərinə uyğunlaşdırılması;
- ✓ Şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması;
- ✓ Mövcud insan kapitalından səmərəli istifadə edilməsi.

Bu xüsusiyyətlərin əldə edilməsi üçün isə öz növbəsində müəyyən addımlar atılmalı, müəyyən sahələrdəki vəziyyət təhlil edilməli və ümumi nəticə çıxarılmalıdır. Təhsil sahəsində uğurun əldə edilməsi üçün qeyd edilən nüanslara diqqət yetirilməlidir:

- ✓ Təhsilin inkişafında xüsusi ilə bölgələrin nəzərə alınması;
- ✓ Təmirsiz qalan ucqar kənd məktəblərində təmir-tikinti işlərinin həyata keçirilməsi;
- ✓ Məktəblərdə idarəetmə sisteminin yaxşılaşdırılması və nəzarət sisteminin gücləndirilməsi;
- ✓ Məktəbəqədər təhsil sisteminin dəstəklənməsi bu sahəyə marağın artırılması;
- ✓ Müəllimlərin attestasiyası və ixtisas artımı;
- ✓ Təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar, məktəblərin lazımı vəsaitlərlə təmin edilməsi və onlar üzərində nəzarət, vaxtaşırı yenilənməsinin təmin edilməsi;
- ✓ Təhsil alan şəxslərin obyektiv qiymətləndirilməsinin təmin edilməsi;
- ✓ Məktəbdənkənar təhsil sisteminin dəstəklənməsi;
- ✓ Distant təhsilin əlçatan olması;
- ✓ Ölkə miqyasında elektron kitabxanaların yaradılması;

- ✓ Ali təhsil alan şəxslərin bilik və təcrübələrinin genişlənməsinə şərait yaradacaq müxtəlif kampusların təşkil edilməsi;
- ✓ Cəmiyyət arasında peşə təhsilinin əhəmiyyətinin aşılanması, bu sahəyə cəlb olunanların sayının artırılması;
- ✓ İnsanlar arasında özünütəhsil və ömür boyu təhsil anlayışlarının təbliğ edilməsi;
- ✓ Təhsil sahəsində beynəlxalq inteqrasiyanın genişləndirilməsi və tələbələrin xaricdə təhsil almasını dəstəkləyəcək dövlət proqramlarının qəbul edilməsi.

2019-cu ildə sosialyönümlü layihələrə dövlət əsaslı vəsait qoyuluşundan 945,4 mln. manat və xarici kreditlər hesabına 19,6 mln. manat olmaqla ümumilikdə 965,0 mln. manat vəsaitin yönəldilməsi "2019-2022-ci illər üzrə Dövlət İnvestisiya Proqramının istiqamətlər üzrə bölgüsü"ndə öz əksini tapmışdır. 2019-cu ildə dövlət əsaslı vəsait qoyuluşu hesabına sosial sahələr üzrə 2018-ci illə müqayisədə 220,6 mln. manat (30,4%) çox vəsait nəzərdə tutulmuşdur. Sosial yönümlü layihələrə yönəldilən xərclər içərisində isə təhsil sahəsinə yönəldilən xərclər böyük çəkiyə sahibdir.

**Cədvəl 2: 2019-cu ildə sosial yönümlü layihələrə yönəldilən vəsaitin xüsusi çəkisi**

| | |
|---|---|
| Təhsil sahəsi | 27.6% |
| Səhiyyə sektoru | 17.6% |
| Əlil və şəhid ailələri üçün yaşayış evləri | 4.7% |
| Mədəniyyət sektoru | 2.3% |
| İdman sektoru | 25.3% |
| Qaçqın və məcburi köçkünlərin sosial təminatı | 20.7% |
| Digər sosial | 1.8% |

**Mənbə:** "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi

Ali təhsil müəssisələri üçün universitet şəhərciklərinin və müvafiq texnoparkların yaradılması, təhsil sahəsində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, təhsilin bütün pillələrində maddi-texniki bazanın gücləndirilməsi, tədris şəraitinin yaxşılaşdırılması və məktəb kitabxanalarının

fəaliyyətinin təkmilləşdirilməsi, əsaslı təmir və avadanlıqla təminat işinin davam etdirilməsi, yeni məktəb binalarının və əlavə korpusların tikintisi, mövcud məktəblərin təmiri nəticəsində çoxnövbəliliyin ləğvi məqsədilə 2019-cu ildə təhsil sahəsi üzrə əsaslı vəsait qoyuluşu və xarici kreditlər hesabına 266,5 mln. manat vəsait proqnozlaşdırılmışdır.

**Cədvəl 3: 2017-2018-ci il üzrə və 2019-cu ilə plan üzrə təhsil xərclərinin istiqamətləri**

| Xərclərin istiqaməti | 2017-ci il icra (min.man) | 2018-ci il proqnoz (min.man) | 2018-ci il gözlənilən icra (min.man) | 2019-cu il layihə (min.man) |
|---|---|---|---|---|
| Bölmənin ÜDM-ə nisbəti, %-lə | 2.5 | 2.9 | 2.6 | 2.8 |
| Bölmənin ümumi büdcə xərclərində xüsusi çəkisi, %-lə | 9.9 | 8.8 | 8.9 | 9.2 |
| Məktəbəqədər təhsil | 152968.9 | 175314.1 | 173560.9 | 233823.6 |
| Ümumi təhsil | 953757.0 | 1082159.6 | 1060516.4 | 1289076.8 |
| İlk peşə-ixtisas təhsili | 26324.4 | 27977.6 | 27697.9 | 39670.0 |
| Orta ixtisas təhsili | 36444.8 | 41302.3 | 40889.2 | 44847.2 |
| Ali təhsil | 188071.0 | 42716.9 | 41862.6 | 46128.5 |
| Əlavə təhsil | 3558.4 | 3743.1 | 3705.6 | 2247.3 |
| Təhsil sahəsində digər müəssisə və tədbirlər | 381565.8 | 670776.0 | 657360.5 | 618776.7 |

**Mənbə:** Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Səhiyyə**: İnkişaf üçün təhsil qədər əhəmiyyətli məqamlardan biri də səhiyyənin inkişafıdır. Müstəqilliyimizin ilk dövrləri ilə müqayisə etdikdə səhiyyə sahəsində də əhəmiyyətli addımlar atılmış böyük nailiyyətlər əldə edilmişdir. Səhiyyə sahəsində aparılan islahatlar nəticəsində səhiyyənin maddi-texniki bazası möhkəmlənmiş, bu sahədə ixtisaslı kadrların sayı artmışdır.

Qarşıya qoyulmuş planlanlar içərisində ÜDM-in payında səhiyyəyə ayırılan vəsaitin artırılması və ondan səmərəli istifadə dayanır. Ölkəmizin xüsusi ilə rayon və kəndlərində səhiyyənin inkişafı zəif gedir ki, bu sahədə də müəyyən tədbirlər həyata keçirilir. Xəstəxanaların təmiri, yeni xəstəxanaların tikilməsi, xəstələrin maddi-texniki bazasının yaxşılaşdırılması və s. bu kimi tədbirlər həyata keçirilən işlər içərisindədir.

Son dövrlər dünya miqyasında səhiyyə sahəsində ən mühüm anlayış icbari tibbi sığortaya keçid olmuşdur. Çox geniş sosial layihə olan icbari itibbi sığorta şəxsin həm özünün, həm də digər insanların sağlamlığının təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycanda da bütün respublika miqyasında yavaş-yavaş icbari tibbi sığortaya keçid həyata keçirilir. İcbari tibbi sığortanın üstünlüklərinə daxildir:

- ✓ Tibbi xidmətlərin keyfiyyətinə nəzarət təmin olunacaq, çünki həkimlərin xəstələrə yazdığı müalicəyə üçüncü bir tərəf – İcbari Sığorta Şirkəti birbaşa nəzarət edəcək;
- ✓ Həkimlərin məsuliyyəti artacaq;
- ✓ İnsanları üçün tibb daha əlçatan olacaq.

Qeyd edilənlərdən əlavə ölkədə ölüm hallarının azaldılması, vaxtında və lazımı dioqnozların qoyulması üçün bir sıra tədbirlər həyata keçirilir. Bunlara daxildir:

- ✓ Alkoqolizm və narkomaniya ilə mübarizə;
- ✓ Sosial xəstəliklərə (QİÇS, diabet və s.) qarşı mübarizə;
- ✓ Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədi ilə profilaktik tədbirlər;
- ✓ Əhalinin öz sağlamlığının qeydinə qalması istiqamətində marifləndirmə işlərinin həyata keçirilməsi;
- ✓ Ana və uşaq sağlamlığının təmin edilməsi üçün mütamadi müayinə tədbirlərinin həyata keçirilməsi;
- ✓ Tibbi vəsaitlərin və dərmanların keyfiyyətinə nəzarətin həyata keçirilməsi;
- ✓ Tibb işçilərinin vaxtaşırı qiymətləndirilməsi, ixtisas artımı üçün müvafiq tədbirlərin həyata keçirilməsi.

2019-cu ilin dövlət büdcəsi layihəsində "Səhiyyə" bölməsinə 1048272,5 min manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2017-ci ilin icrası ilə müqayisədə 343545,9 min manat və ya 48,7% çox, 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə isə 308938,2 min manat və ya 41,8% çoxdur. Səhiyyə xərclərinin dövlət büdcəsi xərclərindəki xüsusi çəkisi 2017-ci ilin icrası ilə müqayisədə 0,1% bəndi, 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə isə 0,9 % bəndi çox təşkil edəcəkdir. (Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi)

**Əlverişli mühit:** Ölkəmizin qarşısına qoyduğu əsas məqamlardan biri də insanların həyat şəraitini yaxşılaşdırmaq, bütün xidmətlərin əlçatanlığını təmin etmək, insanlar arasında hüquq bərabərliyini təmin etmək, ölkədə şəffaflığın qorunmasını təmin etmək üçün əlverişli mühitin təkmilləşdirilməsidir. Azərbaycan 2020: Strateji baxış və əsas prioritetlər Konsepsiyanın əsas məqsədlərindən biri də insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Bu sahə üzrə insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, infrastrukturun təkmilləşdirilməsi kimi tədbirlər həyata keçirilməkdədir.

Bu gün ölkəmizdə mövcud olan ASAN xidmət mərkəzləri insanlar üçün əlverişli mühitin yaradılmasına ən bariz nümunə kimi göstərə bilərik. Getdikcə sayı artmaqda olan bu mərkəzlər ölkədə şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizə aparmaqda, insanlarda vaxta qənaət edilməsinə və əlavə xərclərin aradan qalxmasına, elektron xidmətlərdən istifadənin genişlənməsinə, əhali arasında dövlət orqanlarına etimadın artmasına səbəb olmuşdur.

Əmək bazarlarında qadın və kişilər arasında bərabərliyin yaradılması, gender əsaslı zorakılıq hallarının qarşısının alınması, uşaqların sosial müdafiəsinin təşkil edilməsi, işləyən valideynlər üçün uşaqların rahatlığının təşkil edilməsi üçün şəraitlərin yaradılması kimi məsələlər də insan inkişafı istiqamətində həyata keçirilən tədbirlər sırasındadır.

**Məşğulluq və iş qüvvəsi:** İqtisadi tərəqqinin dinamikliyinin və uzunmüddətliliyinin təmin edilməsi şəraitində əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişaf planının başlıca tərkib hissələrindən biri hesab edilir. Ümumilikdə götürsək məşğulluq məsələsi hər zaman diqqət mərkəzində olmuş, bu sahədə müvafiq qanunlar qəbul edilmişdir. Bu proqramın davamı olaraq növbəti Sərəncam 2018-ci il 30 oktyabr tarixdə qəbul edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda bu hədəflərə doğru yeni mühüm addımların atılması və nailiyyətlərin əldə olunması üçün imkan yaradılmışdır.

2018-2019-cu illərin statistik məlumatlarına nəzər salsaq iqtisadi fəal əhalinin və məşğul əhalinin sayında artım müşahidə edildiyini görə bilərik.

**Cədvəl 4: İqtisadi fəal əhalinin təsnifatı**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı – cəmi, min nəfər | 4757,8 | 4840,7 | 4915,3 | 5012,7 | 5073,8 |
| kişilər | 2436 | 2475,7 | 2510,8 | 2573,2 | 2609,0 |
| Qadınlar | 2321,8 | 2365,0 | 2404,5 | 2439,5 | 2464,8 |
| Məşğul əhalinin sayı – cəmi, min nəfər | 4521,2 | 4602,9 | 4671,6 | 4759,9 | 4822,1 |
| kişilər | 2337,5 | 2376,1 | 2408,2 | 2465,7 | 2502,8 |
| Qadınlar | 2183,7 | 2226,8 | 2263,4 | 2294,2 | 2319,3 |
| İşsiz əhalinin sayı - cəmi, min nəfər | 236,6 | 237,8 | 243,7 | 252,8 | 251,7 |
| kişilər | 98,5 | 99,6 | 102,6 | 107,5 | 106,2 |
| Qadınlar | 138,1 | 138,2 | 141,1 | 145,3 | 145,5 |
| Məşğulluq xidməti orqanlarında işsiz statusu verilmiş şəxslər – cəmi, nəfər | 36206 | 28690 | 28877 | 32972 | 38481,0 |
| kişilər | 21188 | 17383 | 17728 | 20418 | 24496,0 |
| Qadınlar | 15018 | 11307 | 11149 | 12554 | 13985,0 |
| işsizliyə görə müavinət alanlar - cəmi, nəfər | 636 | 1613 | 1543 | 1857 | 6974,0 |
| kişilər | 437 | 1122 | 1087 | 1238 | 4748,0 |
| Qadınlar | 199 | 491 | 456 | 619 | 2226 |

**Mənbə**: Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Sonda onu qeyd edə bilərik ki ölkəmiz özünün müstəqilliyinin qısa olmasına baxmayaraq inkişaf üçün əsaslı addımlar atmış, bu sahədə hər zaman əmək ehtiyatları diqqət mərkəzində olmuş, sahəyə hər cür diqqət ayrılmış, müvafiq qanunlar qəbul edilmiş, beynəlxalq təcrübələrin tətbiqinə başlanılmışdır.

### 3.3. Azərbaycanda iqtisadi inkişafın təkmilləşdirilməsi yolunda yaşanan problemlər və onların həllində əmək ehtiyatlarının rolu

Əvvəlki paraqraflarda da qeyd etdiyimiz kimi ölkəmiz müstəqillik qazandıqdan sonra uzun müddət ciddi problemlərlə qarşılaşmışdır. Bu problemlərin sistemli şəkildə həll edilməsi istiqamətində ciddi addımlar atılmış, müvafiq dövlət aktları, qanunlar qəbul edilmiş, islahatlar həyata keçirilmişdir. İqtisadi artım sahəsində böyük nailiyyətlər əldə edilmiş, müəyyən dövrlərdə artım hətta dünya miqyasında önəmli yer almışdır. İqtisadi inkişafın təmin edilməsi üçün də ciddi addımlar atılmasına baxmayaraq ölkəmiz bu gün bu sahədə yenə də müəyyən problemlərlə qarşılaşmaqdadır.

Bildiyimiz kimi ökədə inkişafın təmin edilməsi üçün iqtisadi sahənin inkişafı ilə bərabər sosial sahənin də inkişafı təmin edilməlidir. Ölkəmiz 2025-ci ilə qoyduğu hədəflər də sosial rifahın yaxşılaşdırılması, ölkəmizdə İnsan İnkişafı İndeksinin yüksək səviyyəyə çatdırılması, yüksək texnoloji inkişaf, rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyat qurmaqdan ibarətdir. İnkişafın təməlində isə rifah, təhsil, səhiyyə sahəsinin təkmilləşdirilməsi dayanmaqdadır. Paraqrafda da bu sahələrdə ölkəmizdə mövcud olan problemlər haqqında danışılacaqdır.

Azərbaycan Respublikasının son illərdə həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir. Bu gün ölkəmiz üçün əsas problemlərdən biri orta təbəqənin demək olar ki, yox dərəcəsində olmasıdır. Statistik məlumatlara nəzər salsaq ölkəmizdə yeni yaradılan iş yerlərinin sayı artan istiqamətlə hərəkət edir. Bəs onda niyə işsizlik və yoxsulluq kimi problemlər hələ də həllini tapmır. Fikrimcə bunun əsas səbəbi yaradılan iş yerlərinin ölkə üzrə qeyri bərabər paylanılmasındadır.

2018-ci il üzrə ümumilikdə ölkə miqyasında 12504 müəssisə və təşkilat yaradılmışdır. Onlar üzrə bölgü Bakı şəhəri – 8303, Abşeron iqtisadi rayonu – 1204, Gəncə-Qazax iqtisadi rayonu – 578, Şəki-Zaqatala iqtisadi rayonu – 340, Quba-Xaçmaz iqtisadi rayonu – 595, Aran iqtisadi rayonu – 867, Yuxarı Qarabağ iqtisadi rayonu – 144, Kəlbəcər-Laçın iqtisadi rayonu – 22, Dağlıq Şirvan iqtisadi rayonu – 79, Naxçıvan Muxtar Respublikası – 46, Lənkəran iqtisadi rayonu – 326 ədəd

şəklində olmuşdur. Qrafikdən və verilən məlumtdan da göründüyü kimi iş yerlərinin əsas hissəsi Abşeron rayonu və Bakı şəhərində açılmışdır. Bu isə regionların inkişafına mənfi təsir göstərir. İkinci mənfi təsir göstərən amil kimi isə yeni açılmış müəssisələrin (2018-ci il üzrə) 53.3%-nin daimi, 46.7%-nin isə müvəqqəti olmasıdır.

**Qrafik 4: 2018-ci il üzrə yeni açılmış iş yerləri**




**Mənbə:** Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizin iqtisadi inkişafında nəzərə alınmalı məqamlardan biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bildiyimiz kimi ölkəmizdə təbii artım müsbət istiqamətdə davam edir, artıq 2019-cu ildə ölkə əhalisi 10 milyonu keçmişdir. Bu isə demoqrafik sahədə yaşanan problemlərin aradan qaldırılmasını tələb edir. Əlverişli iqlim şəraitində yerləşməyimizə baxmayaraq kənd təsərrüfatında ekstensiv tipin hakim olmsı bu sahədə ciddi problemlərə yol açır. Hər il həyata keçirilən meliorasiya və rekultivasiya işlərinə baxmayaraq hələ də, rayon və kəndlərimizdə torpaq və su ilə əlaqəli problemlər qalmaqda davam edir. Bu sahədə ikinci problem mövsüm

vaxtı əhalinin öz məhsullarını sata bilməməsidir. Bunun səbəbi isə bazarda xarici malların kifayət qədər olmasındadır.

Dünya miqyasında ərzaq təhlükəsizliyini qiymətləndirmək üçün Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi və Qlobal Aclıq İndeksləri hazırlanır. Qlobal Ərzaq Təhlükəsizli İndeksinə nəzər salsaq görərik ki, Azərbaycan 2015-2018-ci illər üzrə bu indeksdə 56-58-ci yerləri tutmaqdadır.

**Qrafik 5: Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycanın tutduğu yerlər**




**Mənbə:** https://www.globalhungerindex.org

**Qrafik 6: Qlobal Aclıq İndeksində Azərbaycanın tutduğu yerlər**




**Mənbə:** https://foodsecurityindex.eiu.com/

Qlobal Aclıq indeksinin 2018-ci il üçün məlumatlarına baxdıqda isə Azərbaycanın bu indeksdə 9.5 bal topladığını görərik. Qonşu dövlətlərlə müqayisə

etsək görərik ki, bu göstəricilər Gürcüstanda 8.1, Ermənisanda 7.6, İranda 7.3, Rusiyada 6.1, Türkiyədə isə 5 baldan aşağı olmuşdur. Bu indeksin məlumatlarına inansaq, onda deyə bilərik ki, qonşu dövlətlər bizim ölkədən daha yaxşı vəziyyətdə yaşayır.

Deməli ölkəmiz üçün bu problemin tez bir zamanda aradan qaldırılmasına ehtiyac vardır.

Bəs yuxarıda sadaladığımız problemlərin həlli üçün nə etməliyik:

İşsizlik probleminin aradan qaldırılması üçün, yeni yaradılan müəssisələrin proporsianal olaraq paylanmasına, əhalinin rayon yerlərində də lazımi işlə təmin olunmasına şərait yaradılmalı, kənd təsərrüfatı sahəsindən qazanc əldə edən əhalinin öz məhsullarını realizə edə bilmələri üçün şəraitin yaradılması, ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatında nano və bio texnologiyalardan istifadə edilməlidir.

İndi isə iqtisadi inkişaf üçün ən önəmli faktor olan təhsil sahəsində ölkəmizdə mövcud olan problemlərlə tanış olaq. Bildiyimiz kimi ölkəmizdə məktəblər artıq 2008-cu ildən etibarən kurikulum sisteminə keçid etmişdir. Bu təhsil sisteminə keçid etməkdə əsas məqsəd dünya təhsil sisteminə inteqrasiya, təhsildə yeni baxış və yanaşmaların formalaşması, mövcud olan təhsil proqramlarının müasir tələblərə cavab verməməsi, informasiya əsrinə keçid, ölkədə bazar iqtisadiyyatının formalaşması olmuşdur. Artıq yeni yaradılacaq bu təhsil sitemində təhsil proqramı şəxsiyyətyönümlü, şagirdyönümlü, nəticəyönümlü və s. bu kimi sistemlərə yönləndirilmişdir. Bəs bu sistem ölkəmizə necə təsir göstərdi. Təəssüf ki qeyd etməliyik ki, nəticə gözləntiləri doğrultmadı, çünki ölkə belə bir sistemə hazır deyildi. Bu, həm müəllimlərin bacarıqlarından, həm də əhalinin psixologiyasından asılı olaraq həyata keçirilə bilmədi. Belə ki, dərslərin informasiya texnologiyaları vasitəsi ilə tədrisini nəzərdə tutan bu sistem rayonlarda, xüsusi ilə də ucqar kəndlərdə təhsil sisteminin daha da geriləməsinə səbəb oldu.

Problem sırasında hələ də bir çox rayon və kənd məktəblərində təmir-tikinti işələrinə ehtiyac duyulması da yer almaqdadır. Bu sahədə hər il müəyyən maliyyə vəsaitləri ayrılsa da problem tamamilə aradan qalxmamaqdadır. Eyni zamanda

problemlər sırasına xüsusi ilə də ucqar kəndlərdə müəllim çatışmazlığı da daxildir. Xüsusi ilə xarici fənləri tədris edən müəllimlərin çatışmazlığı təhsil sisteminə mənfi təsir göstərir. Bu eyni zamanda insanlar üçün əlavə xərclərin yaranmasına da səbəb olr. Belə ki, bu şagirdlər üçün təhsildən əlavə repititor fəaliyyətindən də faydalanmağı labüd edir.

Məktəblərdə tənzimləmə, nəzarət və idarəetmə sisteminin zəif olması da növbəti problemlər sırasına daxil edilməkdədir. Buna bariz nümunə kimi hal-hazırda aktual olan məsələ məktəblərdə şagirdlərin psixologiyasının düzgün qurulmaması və bu səbəbdən də baş verən intihar hadisəsini göstərə bilərik.

Müasir dövrdə təhsil sahəsində beynəlxalq inteqrasiyanın genişləndirilməsi və tələbələrin xaricdə təhsil alması aktual məsələlərdəndir. Azərbaycanda bu sahədə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" adlı Sərancan imzalanmışdır, lakin 2016-cı ildən bu fəaliyyətin dayandırılması təhsil sistemində geriləməyə səbəb olan problemlərdəndir.

Ölkədə təhsi sisteminin güclü olması onun sahib olduğu müəllim ehtiyatının bilik və bacarığından, səriştəsindən çox asılıdır. Lakin bu gün ölkəmizdə əmək bazarında yetərincə rəqabətli olmayan əmək haqqı müəllimlərin motivasiyasına mənfi təsir göstərir ki bu da öz nəticəsini təhsil sistemində hiss etdirir.

Digər bir problem isə şagirdlərin düzgün istiqamətdə ixtisas seçməmələrindən ibarətdir. Buna görə də əmək bazarının tələblərinə uyğul olmayan ixtisasların seçilməsi gələcəkdə işsizlərin sayının artmasına səbəb olur.

Ölkəmizdəki universitetlərdən söz açsaq qeyd etmək istərdim ki, bir məqam diqqətimi xüsusi ilə çəkir. Belə ki, 2018-ci ildə "Times Higer Education" ilin ən yaxşı universitetlərinin siyahısını açıqlayıb. Qeyd edilən reytinq cədvəlinə əsasən ilk 500-lük siyahıda ölkəmizdən heç bir universitet yer almamaqdadır. Halbuki qonşu dövlər olan Türkiyənin bu siyahıda 4 ali təhsil ocağı yer alır.

Qeyd etdiklərimizdən də aydın olur ki, inkişafımız üçün vacib olan təhsil amilinə ciddi diqqət ayrılmalı, mövcud problemlər tez bir zamanda aradan qaldırılmalıdır, əks təqdirdə heç bir inkişafdan söz gedə bilməz, çünki bu sahənin inkişafı digər sahələrin də inkişafını dəstəkləyən əsas amildir.

Digər bir sahə isə səhiyyə sahəsidir ki, bu gün bu sahədə də bir sıra çətinliklər yaşayırıq. Bu sahədə yaşanan problemlərə aşağıdakıları qeyd edə bilərik:

- ✓ **Həkimlərə etimadın az olması:** Bu gün öz ətrafımızdakı insanlara nəzər salsaq aydın şəkildə görə bilərik ki, vətəndaşlarımızın çox hissəsi müalicə almaq məqsədi ilə xarici ölkələrə üz tutmaqdadırlar. Bu ölkələrin çoxu isə elə bizimlə qonşu olan dövlətlərdir. Bunun səbəbi isə vətəndaşımızda formalaşan psixologiya və onların yerli həkimlərə etimad etməməsindən irəli gəlir.
- ✓ **Əmək haqqı:** Hal-hazırda ölkə iqtisadiyyatında səhiyyə sistemi əmək haqqına görə ən aşağı səviyyədə olan sahələrdən biridir. Bu isə səhiyyə işçlərininin göstərdiyi xidmətin keyfiyyətinə birbaşa təsir göstərir. Onların aldığı əmək haqqı öz üzərində işləmək, ixtisaslarını artırmaq üçün əlavə heç bir motivasiya yaratmır.
- ✓ **Korrupsiya:** Bildiyimiz kimi, 15 yanvar 2008-ci ildə Səhiyyə Nazirliyinin qərarı ilə həmin il fevralın 1-dən Səhiyyə Nazirliyinin tərkibinə daxil olan və dövlət büdcəsindən maliyyələşən müalicə-profilaktika müəssisələrində əhaliyə göstərilən pullu tibbi xidmət ləğv edilib. Lakin əhali bu xidmətin yalnız cüzi bir hissəsindən faydalana bilir. Faktiki olaraq insanlar aldığı xidmətlərin dəyərini qeyri-rəsmi ödənişlər vasitəsi ilə ödəyirlər.
- ✓ **İcbari Tibbi Sığorta:** Ölkəmizdə təhsil sahəsində bir sıra qanunlar qəbul edilib. Bunların sırasına daxildir:
- ✓ “Tibbi sığorta haqqında” qanun (1999-cu ildə qəbul edilib)
- ✓ 2007-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası” (2007-ci ildə qəbul edilib)
- ✓ 2008-ci ildə imzalanmış Nazirlər Kabineti yanında Tibbi Sığorta Agentliyinin yaradılması haqqında sərəncam

Bütün bu kimi həyata keçirilən tədbirlərin hər birində məqsəd səhiyyənin inkişafına nail olmaq olmuşdur. İcbari Sığorta sahəsində qanun qəbul olunmasına baxmayaraq, onun tam reallaşmaması səhiyyə sahəsində problemlərin qalmaqda

davam etməsinə səbəb olur, çünki bu sahənin inkişaf etməsinin hansı müsbət nəticələrə səbəb olacağı haqqında əvvəlki paraqrafda məlumat verilmişdir.

- ✓ **Nəzarətin zəif olması:** Səhiyyə sahəsində tez-tez rast gəlinən məqamlardan biri də həkim səhlənkarlığı ucbatından xəstənin həyatını itirməsi olur. Bu isə ciddi problemin xəbərçisidir, çünki bu kimi halların olması ya tibb işçilərinin lazımı təhsilə sahib olmaması, ya da tibbi avadanlıqların keyfiyyətinin yaxşı olmaması səbəbindən baş verir. Ona görə də bu sahə dövlətin xüsusi nəzarətində olmalıdır.

Ölkəmiz inkişaf yolunda qeyd etdiyimiz problemləri yaşamaqdadır. Lakin bu hər zaman belə qalacağı anlamına da dəlalət etmir. Bu gün ölkəmizdə tətbiq olunan struktur dəyişikliklər tezliklə bu problemlərin aradan qaldırılacağına zəmin yaradır. Çünki ölkəmizdə qəbul edilən strateji planların fokuslandığı əsas amilin insan olması inkişafın təməl nöqtəsində də insan amilinin dayanması və ölkəmizdə də bu sahədə ciddi işlərin hayata keçiriləsi bütün bunları deməyə əsas  verir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İqtisadiyyatda iqtisadi sahədə artımla yanaşı sosial və siyasi sahələrin də inkişafını nəzərdə tutan iqtisadi inkişaf qloballaşan dünyada ölkələrin nail olmaq istədiyi əsas məqsədlərdən biridir. Bildiyimiz kimi iqtisadiyyatın əsas məqsədi insan tələbatının təmin edilməsidir. Bunun üçün isə müəyyən resusrların olması labüddür. Bütün resursların təməlində isə insan resusrları dayanmaqdadır. İnsan dünyanın öyrənilməsində, yeni texnika və texnologiyanın yaradılmasında, təbiət sirlərinin açılmasında, beyin gücünün artırılması ilə ölkənin beynəlxalq miqyasda tanıdılmasında əsas rol oynayır.

İnsanın iqtisadiyyatda yerinə yetirdiyi vəzifə hər zaman araşdırma mövzuları sırasında yer almışdır. İqtisadi inkişaf ilə əlaqəli elm məktəblərinin irəli dürdüyü müəyyən fikirlər olmuşdur ki, bu barədə birinci paraqrafda ətraflı məlumat verilmişdir. Həmin paraqrafa nəzər salsaq görərik ki, hər bir fikir məktəbi iqtisadi inkişafı müəyyən sahələrin inkişafı ilə əlaqələndirmiş, lakin bir çoxunda iqtisadi inkişafın təmin edilməsində insan amili diqqətdən kənarda qalmışdır. Bu iqtisadi fikir məktəbləri insanı əsasən işçi qüvvəsi kimi dəyərləndirmiş və yalnız iqtisadi artıma nail olunması yolunda təkmilləşdirilməsini nəzərdə tutmuşdur, çünki insan bu istiqamətlərdə dəyərləndirilən zaman sosial amillər nəzərə alınmamışdır. Lakin bu günün əsas tələbləri sırasında insan amilinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamət üzrə əsaslı qanunvericilik aktları qəbul edilir və dünya miqyasında tədbirlər həyata keçirilir.

İnsan kpitalı müasir dövr üçün iqtisadi inkişafı səciyyələndirən əsasən anlayışdır. İnsanların təhsilli, sağlam və məşğul olması iqtisadi inkişafın təmin edilməsində əsas rol oynayır. İqtisadi inkişafını hədəfləyən hər bir ölkə insan inkişafı istiqamətində müəyyən addımlar atmalıdır. Hər il Dünya Bankının dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı tərəfindən İnsan İnkişafı İndeksi hazırlanır. Bu hesabata əsasən dünya ölkələrinin insan inkişafı istiqamətində əldə etdiyi nailiyyətlər müqayisə edilir və reytinq cədvəlləri tərtib edilir. Ölkəmizin illər üzrə təhlilini aparsaq görürük ki, bu sahədə böyük irəliləyişlərə nail olunmuşdur.

İqtisadi idarəetmədə əsas yeri işçilərin fəaliyyətinin əlaqələndirilməsi təşkil edir. Bu isə əməyin təşkili, əmək ehtiyatlarından səmərəli istifadə edilməsini, insan amilinin nəzərə alınmasını tələb edir. Eyni zamanda əmək ehtiyatlarının, əmək fəaliyyətinin, insan resurslarının qarşılaşdığı problemlərin öyrənilməsi müasir dövrün əsas tələbidir.

Ölkələr iqtisadi inkişafı əsaslı şəkildə dəyərləndirmək üçün özlərinin Milli İnkişaf Modelini işləyib hazırlamışlar. Bu modellər əsasında keçdikləri inkişaf yolu dəyərləndirilmiş və gələcək strategiyalar müəyyən edilmişdir. Hər bir model inkişafda fərqli amilləri nəzərə almış və bu istiqamətdən çıxış etmişdir. Müxtəlif modellərin formalaşması şəraiti göstərir ki, onların məşğulluq səviyyəsinin artırılması sahəsində əldə etdiyi nailiyyətlərdə milli adət-ənənələrin, siyasi şəraitin və ictimai əhvali-ruhiyyənin nəzərə alınması önəmli faktordur.

İqtisadi inkişafın ölkələr, xüsusi ilə İEÖ və İEOÖ üzrə qruplaşdırılaraq təhlil edilməsi, bu sahədə insan amilinə nə qədər önəm veriləsi həmin ölkələr arasında bu qədər böyük fərqin əsassız olmadığını sübut edir.

II Fəsildə də qeyd etdiyimiz kimi İEÖ və İEOÖ arasında əmək ehtiyatları arasında aşağıdakıları kimi fərqlər var:

- ✓ İEÖ ixtisaslı işçi qüvvəsinə sahibdir və onlardan fəaliyyəti istiqamətində istifadə olunur, lakin İEOÖ-in əksəriyyətində ixtisasız iş qüvvəsindən istifadə olunur və demək olar ki, onların əməyi istismar olunur;
- ✓ İEÖ-də əmək haqqı məbləği İEOÖ-lə müqayisə olunmyacaq dərəcədə yüksəkdir;
- ✓ İEÖ müəssisə miqyasında əmək ehtiyatların təhlükəsizliyinin təmin edilməsi məsələsinə daha həssas yanaşır;
- ✓ İEÖ-də əmək ehtiyatlarınn iş prosesində daha rahat olmaları üçün əlavə imkanlar yaradır. Son zamanlarda bəzi ölkələrdə həftəlik iş saatlarının azaldılması tətbiq olunmaqdadır;
- ✓ İEÖ-də işçi qüvvəsinin ixtisasının artırılmasına böyük məbləğdə investisiyalar ayırılır;

- ✓ İEÖ-də işçilərin maddi motivasiyası ilə yanaşı mənəvi motivasiyasına da ciddi yanaşılır və s.

Burada əsas məsələ İEÖ üçün bu amillərin dayanıqlığının təmin edilməsi, İEOÖ üçün isə ilk növbədə İEÖ səviyyəsinə çatmaq prioritet olmalıdır.

II Fəsildə görürük ki, İEÖ öz iqtisadi inkişafının təmin edilməsində əsaslı addımlar atmış, belə ki, həyat səviyyəsinin yüksəldilməsi, rifahın yaxşılaşdırılması, əlverişli əmək müitinin yaradılması, işçi qüvvəsinin potensialının artırılması istiqamətində önəmli işlər həyata keçirmişllər. Bunun əksi olaraq isə İEOÖ daim İEÖ-dən asılı halda olmuş, ixtisassız əmək ehtiyatlarına sahib olmuş və ondan israfçılıqla istifadə etmişdir.

Öz müstəqilliyinin 28-ci ilində olan Azərbaycan da iqtisadi inkişafın təmin edilməsində çətin bir sınaqdan keçmişdir. Qeyd etdiyimiz kimi müstəqilliyin ilk illərində istər iqtisadi, istər siyasi, istərsə də sosial sferada vəziyyət acınacaqlı olmuşdur. Lakin bu yolda dövlətimiz heç zaman geri çəkilməmiş, müstəqilliyimizin davamlı olması üçün əlindən gələni əsirgəməmişdir.

Azərbaycan Respublikasının son illərdə həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas istiqamətləri olan əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə, səhiyyə, təhsil sahəsində əsaslı addımlar atılmışdır.

Tədqiqat işi boyunca öyrəndik ki, iqtisadi inkişaf təhsil səhiyyə və məşğulluq sahəsində irəliləyişlə əlaqədardır. Ölkəmiz də bu istiqamətdə əsaslı işlər həyata keçirir, lakin problem tamamilə aradan qalxmamaqdadır. Bu istiqamətlər üzrə verəcəyimiz tövsiyyələr aşağıdakılardan ibarətdir:

Təhsil sahəsində uğurun əldə edilməsi üçün aşağıdakı nüanslara diqqət yetirilməlidir:

- Təhsilin inkişafında xüsusi ilə bölgələrin nəzərə alınması;
- Təmirsiz qalan ucqar kənd məktəblərində təmir-tikinti işlərinin həyata keçirilməsi;
- Məktəblərdə idarəetmə sisteminin yaxşılaşdırılması və nəzarət sisteminin gücləndirilməsi;
- Məktəbəqədər təhsil sisteminin dəstəklənməsi bu sahəyə marağın

artırılması;

- Müəllimlərin attestasiyası və ixtisas artımı;
- Təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar, məktəblərin lazımi vəsaitlərlə təmin edilməsi və onlar üzərində nəzarət , vaxtaşırı yenilənməsinin təmin edilməsi;
- Təhsil alan şəxslərin obyektiv qiymətləndirilməsinin təmin edilməsi;
- Məktəbdənkənar təhsil sisteminin dəstəklənməsi;
- Distant təhsilin əlçatan olması;
- Ölkə miqyasında elektron kitabxanaların yaradılması;
- Ali təhsil alan şəxslərin bilik və təcrübələrinin genişlənməsinə şərait yaradacaq müxtəlif kampusların təşkil edilməsi;
- Cəmiyyət arasında peşə təhsilinin əhəmiyyətinin aşılanması, bu sahəyə cəlb olunanların sayının artırılması;
- İnsanlar arasında özünütəhsil və ömür boyu təhsil anlayışlarının təbliğ edilməsi;
- Təhsil sahəsində beynəlxalq inteqrasiyanın genişləndirilməsi və tələbələrin xaricdə təhsil almasını dəstəkləyəcək dövlət proqramlarının qəbul edilməsi.

Ölkədə ölüm hallarının azaldılması, vaxtında və lazımi diaqnozların qoyulması üçün səhiyyə sahəsində də bir sıra tədbirlər həyata keçirilməlidir:

- Həkimlərə olan etimadın xalq arasında qaldırılması;
- Əmək haqqının səviyyəsinin artırılması istiqamətində işlərin həyata keçirilməsi;
- Korrupsiyaya qarşı mübarizə;
- İcbari Tibbi Sığortanın əlçatan olması;
- Nəzarət sisteminin gücləndirilməsi;
- Alkoqolizm və narkomaniya ilə mübarizə;
- Sosial xəstəliklərə (QİÇS, diabet və s.) qarşı mübarizə;
- Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədi ilə profilaktik tədbirlər;
- Əhalinin öz sağlamlığının qeydinə qalması istiqamətində maarifləndirməsi

işlərinin həyata keçirilməsi;

- Ana və uşaq sağlamlığının təmin edilməsi üçün mütəmadi müayinə tədbirlərinin həyata keçirilməsi;
- Tibbi vəsaitlərin və dərmanların keyfiyyətinə nəzarətin həyata keçirilməsi;
- Tibb işçilərinin vaxtaşırı qiymətləndirilməsi, ixtisas artımı üçün müvafiq tədbirlərin həyata keçirilməsi.

İşsizlik probleminin həlli istiqamətində isə aşağıdakı işlər həyata keçirilməlidir.

- İşsizlik probleminin aradan qaldırılması üçün, yeni yaradılan müəssisələrin proporsional olaraq paylanmasına, əhalinin rayon yerlərində də lazımi işlə təmin olunmasına şərait yaradılmalı;
- Kənd təsərrüfatı sahəsindən qazanc əldə edən əhalinin öz məhsullarını realizə edə bilmələri üçün şərait yaradılmalı;
- Ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatında nano və bio texnologiyalardan istifadə edilməlidir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. “Azərbaycan 2020: Gələcəyə baxış inkişaf konsepsiyası. Bakı. 29 dekabr 2012-ci il.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.
3. “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı.
4. Ağayev A.M, Bədəlov Ə.M., Tağizadə S.J. “Dünya İqtisadiyyati”.
5. Babayev Ə., “Milli İqtisadi İnkişaf Modelinin nəzəri-metodoloji tədqiqi: iqtisadi tərəqqidən iqtisadi modernləşməyə doğru”.
6. Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. “Dünya iqtisadiyyatı: müasir dövrün problemləri”.
7. Hüseynova İ., “İqtisadi İnkişafın elmi əsaslara söykənməsi günümüzün reallığıdır”, İki sahil – 2011.
8. Hüseynov T., “Azərbaycan Milli İqtisadi İnkişaf Modeli: Nəzəriyyə və praktika”, Bakı-Elm-2015.
9. İsmayılzadə Ə.A. “ İnsan resurslarının idarə edilməsi və sosial inkişafı”, Bakı 2013.
10. İqtisadiyyatın davamlı inkişafı problemlər perspektivlər. Beynəlxalq elmi konfransın materialları 27-28 aprel 2016 – cı il Sumqayıt 2016.
11. Məcidbəyli R.X., “İnsan resurslarının idarə edilməsi: insan resurslarının idarə edilməsinin meydana gəlməsi, anlayışı və tarixi inkişaf prosesi”, Bakı, Bilik, 2013.
12. Qurbanov M., “Müasir şəraitdə milli iqtisadi inkişafın keyfiyyət meyarlarının təkmilləşdirilməsi məsələlərinə dair”. Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, Bakı, 2011.
13. Quliyev T., “İnsan resurslarının idarə edilməsi”, Bakı -2013.

14. Quliyev T.Ə., Məşğulluğun sosial – iqtisadi problemləri “əmək və sosial problemləri” 2009 №1(5).
15. Səfərov P.M., Əmək bazarında işsizlik Əmək və sosial problemlər, 2009 №1(5).
16. Şəkərəliyev A., “Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi”, Bakı 2011.

**Xarici dildə**

1. Alataş S., “Ekonomik Kalkinmayi Belirleyen Faktörler: Ampirik Bir Analiz”, Aydın-2014.
2. “Beşeri sermaye ve ekonomik kalkınma ilişkisi”, Adnan Menderes Universitesi, 2017.
3. Dr.Hasan Arslan “İnsan faktörü ve bilinçlilik düzeyinin kalkınmaya etkisi”
4. Doc.Dr. A.Selamoğlu “Yönetim ve üretim anlayışında değişim, Japon modelinin artan etkinliği ve insan unsuru”.
5. Dolun L., Atik H., “Kalkinma Teorileri Ve Modern Kalkınma Bankacılığı Uygulamaları”, Ankara-2006;
6. “Ekonomik kalkınmada Beşeri Sermayenin rolü”, Atatürk Universitesi İktisadi ve İdari Bilimler Dergisi, 2011.
7. “Economic Development in Azerbaijan”, Country Partnership Strategy: Azerbaijan, 2014–2018
8. World Economic Situation and Prospects – 2018

**İnternet resursları**

1. www.stat.gov.az
2. www.edu.gov.az
3. www.president.az
4. http://www.worldbank.org
5. https://www.weforum.org
6. www.globalhungerindex.org
7. www. foodsecurityindex.eiu.com
8. www.economy.gov.az

## Qrafiklərin siyahısı

**Qrafik 1:** İnsan İnkişafı İndeksi göstəricilərinə görə ölkələrin sayı ...................... 34
**Qrafik 2:** 1996-2003-cü illər ərzində iqtisadi sahələrdə artım həcmi.................... 45
**Qrafik 3:** 2003-2018-ci illərdə iqtisadi sahələrdə artım........................................ 46
**Qrafik 4:** 2018-ci il üzrə yeni açılmış iş yerləri................................................... 56
**Qrafik 5:** Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycanın tutduğu yerlər. 57
**Qrafik 6:** Qlobal Aclıq İndeksində Azərbaycanın tutduğu yerlər ......................... 57

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İnsan İnkişafı İndeksində ölkələrin yerləşməsi..................................... 34
**Cədvəl 2:** 2019-cu ildə sosial yönümlü layihələrə yönəldilən vəsaitin çəkisi ....... 50
**Cədvəl 3:** 2017-2018-ci il üzrə və 2019-cu ilə plan üzrə təhsil xərclərinin istiqamətləri ......................................................................................................... 51
**Cədvəl 4:** İqtisadi fəal əhalinin təsnifatı ............................................................... 54